www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 iyul 2015-ci il Çərşənbə № 163 (6191) Qiymәti 40 qəpik

**Xəbər**

## Köçkün "Qaçqınkom"un qarşısında özünü yandırdı- təfərrüat

yazısı səh.15-də

**Gündəm**

### Rusiyanın yeni "Milyarderlər ittifaqı" layihəsi


İlqar Qasımov


Nəriman İmranov

Sabiq MTN "şefi"nin və Rusiya generalının Avrasiya hərəkatını elan etməsinin pərdəarxası

yazısı səh.9-da

### Prezidentin ev verdiyi jurnalisti AzTV-dən çıxardılar

yazısı səh.10-da

### Azərbaycanla Gürcüstan arasında məxfi sazişin detalları açıqlandı

yazısı səh.11-də

### YAP-ın yeni seçki taktikası - rəqibləri nə düşünür?

yazısı səh.6-da

### Elçin Behbudov azərbaycanlı girovlarla görüşmək istəyir

yazısı səh.5-də

### Siyavuş Novruzovdan alman şirkəti barədə sensasion açıqlama

yazısı səh.7-də

### Kompüterdən və internetdən asılılıq insanları necə ölümə aparır?

yazısı səh.13-də

### "Ölüm saçan" Hollandiya gülləri Bakı mağazalarında?!

yazısı səh.4-də

### Ermənistanda vəziyyət yenə gərginləşdi

yazısı səh.7-də

### Hökumət Azərbaycanın maliyyə hesabatının dərcinə qadağa qoydu

yazısı səh.12-də

### Yunusların məhkəməsində şahidlər dindirildi

yazısı səh.10-da

### Seçkini boykot çağırışları etirazla qarşılandı

yazısı səh.6-da

## İŞİD və PKK-nın iki qardaş ölkəni "ürəyindən vurmaq" niyyəti

# BAKI NEFTİ TERRORÇULARIN HƏDƏFİNDƏ

İrandan Türkiyəyə gələn qaz xətti partladıldı; terror hücumlarının hədəfində Bakı-Tiflis-Ceyhandır; İŞİD hələ yanvar ayında Azərbaycanı neft buruqlarını vuracağı ilə təhdid etmişdi; Bakı-Supsa qismən Rusiya ordusunun nəzarətinə keçdikdən sonra BTC-yə həm İŞİD-in, həm PKK-nın, həm Rusiyanın təhdidlərindən doğan təhlükə var; Iğdırda azərbaycanlı iş adamının TIR-ları yandırıldı




yazısı səh.8-də

# Fazil Məmmədovun özünüxilas əməliyyatı

Vergilər naziri prezidentin danlağından sonra kollegiya iclası çağırıb, özünütənqid ruhunda çıxış edib; üstəlik, vətəndaşlara sms-müraciətlər təşkil etdirib sahibkarlara qahmar çıxmaq görüntüsü yaradır; onun bu cəhdləri itirdiyi mövqeləri geri qaytaracaqmı?

yazısı səh.5-də


Ərəstun Oruclu

### Tanınmış politoloq həbs təhlükəsi ilə üzləşdiyini deyir

yazısı səh.7-də


Ağalar Vəliyev

### Yanan binanın təmiri ilə bağlı şok iddia: "Deputatın pulu qurtarıb..."

yazısı səh.15-də


Akif Süleymanov

### Gəncə Texnologiya Universitetinin rektoru ölkədən qaçıb

yazısı səh.10-da

# İran Azərbaycanda avtomobil zavodu açmaq istəyir

**İran Azərbaycanda yeni avtomobil istehsalı zavodu açmaq istəyir. İranın ən böyük avtomobil istehsalı şirkəti "İran Khodro" (IKCO) hazırda Azərbaycana avtomobil ixrac edir. Bununla yanaşı, şirkət eyni zamanda Azərbaycanda avtomobillərin yığılmasının təşkili (Complete Knock Down) zavodunu da açmaq niyyətindədir. Bu barədə "İran Khodro"nun direktoru Haşım Yeke Zare «Trend»ə verdiyi açıqlamasında deyib.**

O bildirib ki, hazırda Azərbaycanın iş adamları ilə bu istiqamətdə müzakirələr aparılır və ölkənin aidiyyəti orqanlarından zavodun tikilməsi ilə bağlı lizensiya almağa çalışırlar: "Zavod azərbaycanli iş adamının sərmayəsi ilə tikiləcək və birinci mərhələdə ölkədə avtomobillərin yığılmasının təşkili həyata keçiriləcək".

Şirkət rəhbərinin sözlərinə görə, lizensiya verildən 2 il sonra "İran Khodro" Azərbaycanda avtomobil istehsalına başlayacaq: "Şirkət üçün əsas prioritet Azərbaycana keyfiyyətli avtomobillər istehsal etməkdir".




Y.Zare bildirib ki, Azərbaycanda yeni tikiləcək zavodda ildə 10 min avtomobil istehsal olunması planlaşdırılıb, avtomobillərin bir qismi isə ixrac olunacaq.

"İran Khodro"nun rəhbəri sonra əlavə edib ki, cari ildə Azərbaycana 2 min avtomobil ixrac etməyi planlaşdırırlar.

"İran Khodro" keçən il 360 minə yaxın avtomobil istehsal edib, bu il isə 600 min avtomobilin istehsalı planlaşdırılır.

İranda 2014-cü ildə 1,090,846 maşın istehsal olunub, ancaq 2025-ci ilədək bu rəqəmin 3 milyona çatması planlaşdırılıb.

Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun ayları ərzində Azərbaycana 17,640 ədəd avtomobil idxal olunub. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 48,7% azdır.



## Xaqani Hüseynov anıldı

**Qarabağ Azadlıq Təşkilatının (QAT) mərkəzi ofisində xalq hərəkatının fəal iştirakçısı, Qarabağ Azadlıq Hərəkatının ilk sədri, ictimai-siyasi xadim Xəqani Hüseynovun anım mərasimi keçirilib.**



Mərasimdə mərhum Xəqani Hüseynovun hərəkat yoldaşları, ictimai-siyasi təşkilatların nümayəndələri, qohumları iştirak ediblər. Hacı Qubad mərhumun ruhuna dualar oxuyub, Quran tapşırıb. Hərəkat yoldaşları Akif Nağı, Nəsiman Yaqublu, Vaqif Əlisoy, Şakir Abbas, Asif Məmmədov, Gülağa Aslanlı, qohumları İslam Əliyev, Rəfayıl Hüseynov və digərləri çıxış edərək mərhumun xalq qarşısında xidmətləri, insani keyfiyyətləri, mübarizə yolu haqqında danışıb, rəhmət diləyiblər.

❑ ELŞAD

## Bu gün 42 dərəcə isti olacaq

**İyulun 29-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli olacağı, mülayim şimal-qərb küləyinin əsəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, havanın temperaturu gecə 21-26, gündüz 35-38, bəzi yerlərdə 40 dərəcə isti olacaq.**

Azərbaycanın rayonlarında isə hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 35-40, bəzi yerlərdə 42, dağlarda gecə 15-20, gündüz 27-32 dərəcə isti olacaq.

## Qarabağa gətirilən Suriya ermənilərinə "DQR" pasportları paylanır

**Suriyada vətəndaş müharibəsi başlandığı andan etibarən 13 mindən artıq suriyalı erməni Ermənistana gətirilib. Modern.az xəbər verir ki, həmin ermənilərin böyük hissəsi Ermənistan rəhbərliyi tərəfindən qanunsuz olaraq Azərbaycanın işğal olunmuş torpaqlarına yerləşdirilir.**

Hazırda 200-dən artıq Suriya ermənisinin ailəsi Qarabağa - ilk növbədə isə Laçın və Kəlbəcər rayonlarına köçürülür, onlara "Dağlıq Qarabağ Respublikası" adlı separatçı qurumun pasportları paylanır.

## Azərbaycanda viruslu hepatitlərə yoluxma halları azalıb

**"Dünyada hepatit xəstəliyinə tutulma hallarının artımına baxmayaraq, Azərbaycanda bu sahədə olan vəziyyət nəzərə çarpan dərəcədə yaxşılaşıb". APA-nın xəbərinə görə, bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətinin "28 iyul - Beynəlxalq Hepatitlə Mübarizə Günü" ilə bağlı yaydığı məlumatda qeyd olunub. Məlumatda bildirilib ki, həyata keçirilən tədbirlər, o cümlədən, əhali arasında aparılan maarifləndirmə, təbliğat işləri, səhiyyə müəssisələrində təhlükəsizlik və digər addımlar sayəsində ölkədə viruslu hepatitlərə yoluxma halları illər üzrə müqayisədə azalıb.**

Qeyd olunub ki, hepatitin müayinə və müalicəsi, ondan qorunma istiqamətində ölkədə vəziyyətin yaxşılaşdırılması məqsədilə əhəmiyyətli addımlar atılır: "Səhiyyə Nazirliyində Hepatit virusuna yoluxmuş şəxslərin müayinə və müalicəsinin təşkili üzrə Komissiyanın yaradılmasını qeyd etmək lazımdır. Həyata keçirilən tədbirlər çərçivəsində hepatitli xəstələrin diaqnozunun dəqiqləşdirilməsi məqsədilə müayinə planı təsdiq edilib. Şəhər, rayon tibb idarə və müəssisələrinin rəhbərlərinə virus hepatitli xəstələrin planda qeyd olunmuş müayinələrin nəticələrinə əsasən, komissiyaya göndərilməsinə dair tapşırıqlar verilib. Komissiyanın rəyi əsasında virus hepatitli xəstələrin müvafiq dərman preparatları ilə və eləcə də müəyyən edilmiş tibb müəssisələrinin lazımi avadanlıqlarla təminatı ilə bağlı tədbirlər həyata keçirilib".



## İran ABŞ-a birbaşa uçuşları bərpa etməyə hazırdır

**İranın Mülki Aviasiya Təşkilatının rəhbəri Məhəmməd Hada Karmi beynəlxalq sanksiyaların ləğv olunması ilə əlaqədar ölkəsinin ABŞ-a birbaşa uçuşları bərpa etməyə hazır olduğunu bildirib.**

Bu barədə "Report" «RİA Novosti»yə istinadən xəbər verir.

"İran hava nəqliyyatı parkı ABŞ-a birbaşa reyslərin həyata keçirilməsini reallaşdıra bilən transatlantik təyyarələrlə təchiz olunub", - H. Karmi bildirib.

Onun dediyinə görə, sözü gedən uçuşların bərpa olunması üçün müvafiq qurumlardan "diplomatik icazə" almaq lazımdır və belə icazənin əldə olunmasından sonra "Mülki Aviasiya Təşkilatı birbaşa uçuşların bərpa edilməsi prosesinin digər zəruri prosedurlarını həyata keçirəcək".

Hada Karmi əlavə edib ki, sanksiyaların aradan qaldırılması ilə əlaqədar müxtəlif ölkələrdən olan böyük təyyarə istehsal edən şirkətlər İrana əməkdaşlıq təklif edib. "Təyyarə və müxtəlif avadanlıqların İrana satışı ilə bağlı daxil olan təkliflər müvafiq orqanlara göndərilib və artıq onlar öyrənilir", - o bildirib.



## Qəddafinin oğlu haqqında edam cəzası çıxarılıb

**Liviyanın keçmiş lideri Muammər Qəddafinin oğlu Seyfülislam Qəddafi, keçmiş milli təhlükəsizlik naziri Abdullah əs-Sənusi və keçmiş baş nazir Başbakan əl-Bağdadi əl-Mahmudi haqqında edam cəzası verilib.**

APA-nın Türkiyənin "Hürriyet" qəzetinə istinadən verdiyi məlumata görə, adları çəkilən şəxslərlə yanaşı daha 7 nəfər "Qəddafinin devrildiyi 2011-ci ildəki üsyan zamanı etdikləri cinayətlərə görə" edam cəzasına məhkum edilib.

Qəddafinin oğlu haqqında hökm qiyabi verilib. Çünki Seyfülislam hazırkı Liviya hakimiyyətinə tabel olmayan keçmiş üsyançı qrup tərəfindən Zintan bölgəsində saxlanılır.

Seyfülislam işlətdiyi ehtimal edilən cinayətlərə görə Beynəlxalq Cəza Məhkəməsi tərəfindən də axtarılırdı.

## Azərbaycan-Gürcüstan sərhədi 24 saat açıq olacaq

**Dövlət Gömrük Komitəsi Tovuz Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Sınıq Körpü" gömrük keçid məntəqəsində Azərbaycan və Gürcüstan gömrük orqanlarının nümayəndə heyətlərinin görüşü keçirilib.**

Komitənin mətbuat xidmətindən verilən məlumata görə, "Sınıq Körpü" keçid məntəqəsində nümayəndə heyətlərinin görüşü keçirilib. Görüşdə bildirilib ki, hazırda bölgədə həyata keçirilən irimiqyaslı layihələr, eləcə də turizm potensialinin gücləndirilməsi ilə əlaqədar tədbirlər nəticəsində sərhəddən keçən sərnişinlərin, yüklərin və nəqliyyat vasitələrinin ciddi artımı müşahidə olunur. Bu istiqamətdə gömrük xidmətinin keyfiyyətinin daha da yaxşılaşdırılması, sərhəddən keçidin sürətləndirilməsi və asanlaşdırılması məqsədilə birgə əməkdaşlığın vacibliyi vurğulanıb.

Görüşdə "Sadıxlı" və "Mtkvari" keçid məntəqələrindən sərnişinlərin 24 saat keçidinin təmin olunması üçün lazımi tədbirlərin görülməsi, bu il avqustun 10-dan etibarən isə saat 08:00-dan 20:00-dək yüngül minik avtomobillərinin keçidinin təmin olunması barədə razılıq əldə olunub.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər və əməkdaşlıq perspektivləri müzakirə edilib.

## "Kapital Bank"ın bankomatı partladıldı

**Abşeron rayonunda "Kapital Bank" ASC-yə məxsus bankomatdan oğurluğa cəhd olub.**

"Report" xəbər verir ki, gecə saatlarında rayonun Saray qəsəbəsində naməlum şəxs və ya şəxslər ASC-nin bankomatını oradakı pulları götürmək məqsədilə sındırıblar. Hadisə zamanı bankomatın monitorunda partlayış baş verib. Soyğunçuluq etmək istəyənlər ərazidən uzaqlaşıblar.

## "Gecə canavarları" Qarabağa girməyəcək

**Kremldən kurasiya olunan "Gecə canavarları" bayker klubunun üzvlərinin Rusiyadan bir qrup erməni baykerlə Ermənistana, oradan Dağlıq Qarabağa yürüş edəcəyinə dair yayılmış xəbərlərə yeni detallar əlavə olunub.**

Virtualaz.org saytı xəbər verir ki, Rusiya Erməniləri İttifaqının vitse-prezidenti Levon Manukyan facebook səhifəsində Moskva-İrəvan-Qarabağ marşrutu ilə "Gecə canavarları"nın deyil, erməni əsilli rusiyalı baykerlərin yürüş edəcəyini açıqlayıb.

Lakin Manukyan bildirib ki, "Gecə canavarları" da bu aksiyaya dəstək verir, onlar yürüş iştirakçılarına Rusiya ərazisində texniki dəstək verəcəklər.

"Gecə canavarları"nın Qarabağa yürüş edəcəyinə dair informasiyaların mənbəyi Rusiya Erməniləri İttifaqı idi. Bildirilirdi ki, Putinin şəxsən dəstəklədiyi bayker klubunun üzvlərinin həmin marşrutla səyahəti avqustun 1-də başlayacaq.

Rusiya Erməniləri İttifaqı bildirirdi ki, "Gecə canavarları"nın məqsədi Dağlıq Qarabağda yaşayan insanlarla tanış olmaq, əhali ilə təmas qurmaqdır.

## Beynəlxalq Bankın mətbuat xidmətinə yeni rəhbər təyin olunub

**Beynəlxalq Bankın mətbuat xidmətinin rəhbəri, jurnalist Rauf Ağayev tutduğu vəzifədən istefa verib. Bu barədə APA-ya R.Ağayev məlumat verib.**

R.Ağayev fəaliyyətini jurnalist kimi davam etdirəcəyini, yaşıd həmkarları ilə birgə yaratdıqları elektron qəzetdə çalışacağını bildirib.

Qeyd edək ki, R.Ağayev 14 il ABB-nin mətbuat xidmətində çalışıb. "APA-Economics"in məlumatına görə, bu vəzifəyə Yadigar Cəfərli təyin edilib.

Qeyd edək ki, Y. Cəfərli bundan əvvəl "AzərTürk Bank" və "Kapitalbank"ın mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışıb.

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Ankaranın yeni antiterror planı

## Türkiyə Suriya türkmənlərini birləşdirir, vahid Türkmən ordusu yaradılır, kürdlər isə Əsədə "stavka" edir, Azərbaycan nə etməlidir?

**Türkiyənin PKK və İŞİD-ə qarşı antiterror əməliyyatları davam edəcək. Ankara əməliyyatlara hərbi və siyasi dəstək almaq üçün NATO-ya müraciət edib. İyulun 28-də NATO üzvü 28 ölkənin səfirləri Türkiyənin İŞİD və PKK-ya qarşı fəaliyyətlərini müzakirə etmək üçün fövqəladə iclas keçirib.**

Toplantıdan əvvəl mətbuata açıqlama verən NATO baş katibi **Jens Stoltenberg** NATO-nun terrora qarşı mübarizədə Türkiyə ilə birgə olduqlarını deyib. "Washington Post" qəzeti isə yazıb ki, ABŞ və Türkiyə Suriyanın şimalında "bufer zona" qurulması ilə bağlı razılığa gəliblər. Obama ilə Ərdoğan arasında telefon danışığı zamanı əldə olunan razılaşmaya əsasən, Suriyanın şimalında qurulacaq "bufer zona" Türkiyə sərhədləri boyunca Hatay vilayətinə qədər uzanacaq və 11 km uzunluğa malik olacaq. Ancaq texniki olaraq belə bir bölgənin qurulması üçün BMT TŞ-nin qərarı lazım olacaq. Buna isə Rusiya və Çinin etiraz edəcəyi ehtimal olunur.

Bu arada Türkiyənin baş naziri Əhməd Davudoğlu CNN telekanalında məşhur aparıcı Kristina Amanpura müsahibə verib. Aparıcının əməliyyatlara Türkiyənin gec qoşulmasının səbəbi ilə bağlı suala cavab olaraq Davudoğlu deyib ki, Suriyadakı terrorçu qruplara qarşı olduqlarını, ancaq son bir həftədə ardıcıl olaraq baş verən terror hücumları, hərbçilərin qətlə yetirilməsindən sonra hərəkətə keçiblər. Baş nazir bildirib ki, Suriyanın şimalında təhlükəsiz bölgənin yaradılmasında əsas məqsəd suriyalı qaçqınların öz ərazilərində yerləşdirilməsi, ikincisi isə bu bölgənin terrorçu qruplardan təmizlənməsi olub. Ə.Davudoğlu bildirib ki, Suriyanın şimalında yaradılacaq təhlükəsiz bölgədə müxaliflərin hazırlanması həyata keçirilə bilər. Eyni zamanda o təsdiq edib ki, ABŞ və Türkiyə İŞİD-ə qarşı birgə savaşmaq, hərbi hava bazalarını koalisiyanın ixtiyarına verilməsi ilə bağlı razılaşma əldə olunub.

Türkiyənin baş naziri savaşın kürdlərə deyil, PKK-ya qarşı olduğunu bildirərək, son günlər yaranmış gərginliyi aradan qaldırmağa çalışıb. Eyni zamanda baş nazir kürd siyasi qurumlarının PKK-ya dəstək verməsini qınayıb.

### Suriya kürdləri Əsəd rejiminə qoşulacaqları ilə hədələyir

Bu arada Suriya kürdləri Ankaranın mövqeyindən ciddi şəkildə narahat olduqlarını büruzə veriblər. PYD-nin hərbi qanadı YPG-dən bildiriblər ki, Türkiyə Hərbi Hava Qüvvələri İŞİD-lə yanaşı onların mövqelərini bombalayır. Suriya kürdlərinin lideri, PYD-nin həmsədri Saleh Müslim isə kəskin dönüş yaradacaq açıqlama verib. Londonda yerləşən "əl-Hayat" qəzetinə müsahibəsində Saleh Müslim YPG-nin şərtləri qəbul olunacağı təqdirdə Suriya ordusuna qatıla biləcəyini deyib. Suriyanın bölünməsinə qarşı olduqlarını, federasiya və ya kürd muxtariyyəti istədiklərini bir qədər əvvəl açıqlayan S.Müslim "Suriya ordusu yeni bir yanaşma və şərtlərlə bölgəyə dönmək istəyirsə, nədən olmasın? O zaman YPG Suriya ordusunun bir parçası ola bilər. Ancaq ordunun dönüşü BƏƏS məntiqi və kəşfiyyatı ilə ola bilməz. Keçmiş zamanlara qayıtmayacağıq" deyə əlavə edib. Saleh Müslim "demokratik və federal Suriya üçün" mübarizə apardıqlarını deyib.






### Ankara türkmənlərə "stavka" edir

Türkiyə mətbuatı yazır ki. hökumət İŞİD-lə mübarizə çərçivəsində Suriyada savaşan türkmən birliklərini təşkilatlandırıb vahid qüvvəyə çevirməyə çalışır. Ankarada bugünlərdə Milli İstihbarat Təşkilatının koordinasiyası ilə Suriyada hökumətə qarşı savaşan 20 türkmən briqadasının komandirlərinin iştirakı ilə toplantı keçirilib. Toplantıda Suriyada 5 min nəfərlik vahid türkmən ordusunun yaradılması haqda qərar verilib. Alınmış qərara əsasən bugünlərdə yeni ordu dünyaya təqdim olunacaq. Yeni türkmən birləşmiş ordusu dünya türkmənlərinə müraciət edərək "vətəninizi müdafiə edin" çağırışı edəcək. Yeni ordu İŞİD və Suriya ordusuna qarşı savaşacaq, eyni zamanda Suriyanın şimalında türkmənlərin etnik təmizlənməsinə qarşı olacaq.

Bu arada məlum olub ki, ABŞ-ın dəstəklədiyi Suriya müxaliflərinin "təlim-təchiz" proqramı iflas edib. Bu isə onu göstərir ki, Ankara kürdlərə qarşı türkmən kartından istifadə etməyə çalışır. Bununla həm Suriyadakı türkmən etnik kimliyinin qorunması, həm də kürdlərin möhkəmlənməsinin qarşısını almağa, eyni zamanda etnik kartı əlində saxlamağa çalışacaq. Bununla eyni zamanda hökumət ölkə daxilində millətçi qrupların da dəstəyini almağa çalışacaq.

### Azərbaycan üçün təhlükə var

Qeyd edək ki, Türkiyənin İŞİD-lə savaşa başlaması ölkə ərazisində çoxlu sayda İŞİD üzvünün həbs olunmasına səbəb olub. Saxlanılanlar arasında Azərbaycan vətəndaşları da var. Hətta bir neçə gün əvvəl İŞİD-in "İstanbul əmiri" adlandırılan Azərbaycan vətəndaşı Abdulla Abdullayevin həbs olunduğu xəbərləri yayılsa da, sonradan bu şəxsin Dağıstan sakini olduğu məlum olub. Lakin ümumilikdə həbs olunanlar arasında Azərbaycan vətəndaşlarının olması İŞİD təhlükəsinin ölkəmiz üçün ciddi təhdidə çevrildiyi mövzusunu yenidən gündəmə gətirir. Bir sıra ekspertlər də Azərbaycan hökumətinin ölkə daxilində İŞİD və radikal terror çağırışları, təbliğat və təşviqat fəaliyyətlərinə qarşı ciddi əməliyyatlar həyat keçirməli olduğu barədə təkliflər irəli sürür. **Politoloq Ərəstun Oruclu** deyir ki, İŞİD-ə və radikal qruplara qarşı əməliyyatlar daha əvvəldən keçirilməli idi: **"Çünki azərbaycanlıların bu terror təşkilatlarına qoşulması ilə bağlı aylar öncədən mətbuat və ekspertlər məlumat verirdi. Yenə də gec deyil. Hər halda, Türkiyədə bu qədər azərbaycanlı İŞİD-çinin tutulması çox ciddi siqnaldır. Bu, təhlükəli tendensiyalardan xəbər verir. Və əslində bizim ən pis proqnozlarımız özünü doğruldur ki, bəli, İŞİD Azərbaycan üçün hər zaman təhlükə olub və bu gün də təhlükədir. Ən azından bütün bu şəbəkə nəzarətdə saxlanılmalıdır".**

Ə.Oruclunun qənaətinə görə, ölkədə insanları, xüsusən də gəncləri radikal terror qruplarına cəlb edən, bu cür fəaliyyətləri təşviq edən ciddi şəbəkə mövcuddur və hökumət orqanları bu şəbəkəni ifşa etməlidir: **"Məsələ ondadır ki, yüzlərlə azərbaycanlını Suriyaya aparan ciddi şəbəkə var. Deməli, burda çox düzənli şəbəkə var ki, o şəbəkə bu insanları tapır, ən azı psixoloji baxımdan hazırlayır, onların etibarlılığını yoxlayır. Bunlar heç biri asan məsələ deyil. Söhbət terrorçu təşkilata, hansı ki, bu gün dünyanın böyük güclərinin hədəfində olan bir təşkilata qoşulmaqdan gedir".**

Son aylarda hüquq-mühafizə orqanlarının bir sıra terrorçu şəbəkə üzvünü həbs etdiyini qeyd edən ekspertə görə, həbslərlə bağlı şübhəli məqamlar, bəzilərinin azadlığa buraxılması narahatlığa səbəb olur: **"Təbii ki, hökumət orqanları müəyyən həbslər aparıb. Amma eyni zamanda şübhəli şəxs qismində həbs olunanların bəziləri azad edilib. Bunun nə demək olduğunu anlamaq çətindir. Çünki siyasi və vicdan məhbusları həbsdə qalır, ancaq terror təşkilatına üzv və ya qanunsuz hərbi birləşmələrin tərkibində iştirak şübhəsi ilə həbs olunan şəxslər əfv olunub buraxılır. Yəni mən düşünmürəm ki, bu mübarizə bu gün effektivdir. Terror fəaliyyətlərinə qarşı mübarizənin effektivliyi artırılmalıdır. Ancaq təbii ki, bu, heç kəsin şərlənərək həbs olunması üçün əsas verməməlidir. Ona görə də bu fəaliyyət həm hüquqi çərçivədə, həm də dövlətin maraqlarını nəzərə almaqla aparılmalıdır. Bu da artıq dövlət orqanlarının işidir. Terrorçuluqla mübarizənin ən uğurlu yollarından biri profilaktikadır. Terror baş verəndən sonra artıq o mübarizənin heç bir əhəmiyyəti olmur".**

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Nəqliyyat müfəttişləri azyaşlını "oğurladılar"

**Tanınmış jurnalist Anar Bayramoğlu nəqliyyat naziri Ziya Məmmədovun Nəqliyyat Departamentinin "qoçuları" haqqında facebook profilində maraqlı fakt yazıb.**

Onun statusunu təqdim edirik: "Bu gün (iyulun 28-də-red.) bir qohumumuz azyaşlı uşağı ilə rayondan Bakıya gəlib. Bakının "Şamaxinka" adlanan ərazisində, "baqajında" müxtəlif usta alətləri və pal-paltar olan maşınını saxlayıb. Azyaşlı uşaq maşında qalıb, atası gedib aptekə. Gəldiyində görüb ki, Nəqliyyat Departamentinin "qoçuları" avtomobili sürüb aparıblar cərimə meydançasına. Uşaq da maşının içində, qorxudan cərimə meydançasına kimi ağlamaqdan bağrı çatlayıb. Əsas da bunu gətiriblər ki, sən taksi fəaliyyəti ilə məşğulsan. Qohumum başa sala bilməyib ki, 5 oturacağı olan avtomobilin, arxa oturacaqlarında rayondan gətirdiyi usta alətləri və pal-paltar, qabaq oturacaqda isə uşaq əyləşib, belə halda taksi fəaliyyəti necə göstərə bilərəm? Xeyri olmayıb. İndi deyirlər ki, maşını cərimə meydançasından azad etmək üçün rüsumda nəzərdə tutulmuş məbləği ödəməlisiz.

Ziya Məmmədovun bu dəstəsinin belə əməlləri birinci dəfə deyil. Bu qoçular dəfələrlə hətta qanuni taksi fəaliyyəti göstərən insanları incidiblər, ölüm həddinə çatana kimi döyüblər. Bütün qanunsuz nə varsa bunlar ediblər. Amma bir "dur!" deyən olmayıb. Nazirliyin mətbuat xidmətinin rəisi, bizim həmkarımız, bayram şəkərburası kimi ildə bir dəfə hansısa telekanala çıxan Namiq Həsənov, həmişəki kimi, telefonuna cavab vermir ki, dərdimizi deyək. Nazirliyin şikayətlər üçün yaratdığı "Qaynar xətt" nömrələri isə ümumiyyətlə işləmir. İndi biz sadə vətəndaşlar dərdimizi kimə deyək?"



# Qarabağa gedən iş adamı İnterpol xətti ilə axtarışa verildi

**Baş Prokurorluğun mətbuat xidməti rusiyalı iş adamı Qerman Sterliqovla bağlı məlumat yayıb. Məlumatda bildirilir ki, Baş Prokurorluq Azərbaycanın dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda qanunsuz keçərək işğal olunmuş ərizilərə gedən Qerman Sterliqov barəsində Cinayət Məcəlləsinin 281.2 və 318.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində Bakı şəhəri, Nəsimi Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verib. Hazırda onun tutulub istintaqa cəlb edilməsi üçün İnterpolun Milli Mərkəzi Bürosu tərəfindən zəruri istintaq və əməliyyat-axtarış tədbirləri həyata keçirilir.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015




# Ya birləşməli, ya da...

## Ekspertlər bildirirlər ki, bağlanacaq bankların siyahısı genişdir, əksəriyyətini xilas etmək mümkün deyil

**Bir müddətdir ölkə banklarının ciddi durumu müzakirə edilməkdədir. Banklardan biri olan "Bank Technique"də ciddi maliyyə problemləri ilə bağlı da çeşidli məlumatlar yayılır. Bankda maliyyə çatışmazlıqlarının yaranması və qurumun ödəmələri həyata keçirməkdə çətinlik çəkməsi ciddi şəkildə müzakirə mövzusudur. Hətta beynəlxalq reytinq agentliyi "Moody's" da "Bank Technique"nin yerli və xarici valyuta ilə uzunmüddətli depozit reytinqini və Caa1-dən Caa2-yə endirib. Agentlik həmçinin bankın kredit qabiliyyətini Caa2-dən Caa3-ə endirib. Bankın Mərkəzi Banka təqdim edilmiş rekapitalizasiya planına əsasən səhmdarlardan subordinasiyalaşmış borc şəklində 8 milyon manatın cəlb edilməsi nəzərdə tutulur. Bununla belə, vaxt çərçivələri müəyyən deyil. Bundan əlavə, agentlik qeyd edir ki, 8 milyon manat bankın kapitalının möhkəmləndirilməsi üçün yetərli deyil. "Bank Technique" ən azı 28 milyon manat kapital yatırımına ehtiyac duyur, bunun 5 milyon manatı birinci dərəcə kapitaldır.**

Ekspertlər isə bildirirlər ki, Mərkəzi Bank "Bank Technique" lazım olan vəsaiti ayırmasa, bank müflis olacaq ki, bu prosesin artıq əmanətçilərin öz pullarını geri çəkməklə başladığı göz önündədir. **Ekspert Samir Əliyevin** sözlərinə görə, faktiki olaraq bir sıra banklar bağlanmağa namizəddir: "Hazırda böhranlı bankları şərti olaraq iki yerə bölmək olar: maliyyə problemi həll oluna bilən banklar və problemin qurbanı olacaq banklar. Birinci qrup banklar çoxluq təşkil edir və onlar problemdən ya minimal itki ilə çıxıblar, ya da problemi həll etmək iqtidarındadırlar. İkinci qrup bankların vəziyyəti daha ağırdır. Mərkəzi Bank dəstək verməsə, onların müflisləşməsi qaçılmazdır. Elələri də var ki, onları artıq xilas etmək mümkün deyil. Onların aktivlərinin çoxu zərərlidir və belə bankların bağlanmaqdan savayı yolu yoxdur. Faktiki olaraq bir sıra banklar bağlanmağa namizəddir. Onların taleyi ilə bağlı yüksək səviyyədə müzakirələr gedir. Aydındır ki, maliyyə vəziyyətinin pis olması bankın bağlanması üçün əsas olsa da bu, hərdən kifayət etmir. Azərbaycanda bankların taleyi ilə bağlı siyasi hakimiyyətin ən yüksək səviyyəsində qərar verilir və bu gün də həmin qərarları gözləyən banklar var. Artıq 2 bankla bağlı qərar verildi və daha bir neçə bank bu qərarı gözaltına alıb. Yəqin ki, yaxın dövrdə bağlanmış bankların sırasına daha bir neçəsi qoşulacaq".

**Ekspertin sözlərinə görə, bankların birləşməsi yaxşı addım olsa da, bu mexanizm təəssüf ki, işləmədi:** "Ötən ilə qədər belə təşəbbüsün səmərəsi daha çox ola bilərdi. İndi qərar vermək baxımından asan olsa da, səmərəlilik baxımından fəsadları ola bilər. Çünki batmaqda olan bankın digər banka birləşdirilməsi və ya onun tərəfindən udulması həmin banka əlavə problemlər yarada bilər. Ona görə də birləşmə sanki arxa plana keçib və əsas diqqət bankların bağlanmasınadır. Makroiqtisadi şərait də bankların bağlanmasını zəruri edir. Müştərilərin həyat səviyyəsinin pisləşməsi, kontingentin azalması, böyük həcmli büdcə pullarının azalması bankların sayının azalmasını zəruri edir. Mərkəzi Bank da bunu anlayır və diqqəti bu istiqamətə yönəldib".

❑ **Röya RƏFİYEVA**

---

**Rusiya hökuməti Hollandiyadan gətirilən güllərin bu ölkəyə daxil olmasına qadağa qoyub. "Yeni Müsavat" Rusiya mətbuatına istinadən bildirir ki, Hollandiya güllərinin tərkibində insan sağlamlığı üçün ciddi təhlükə yarada bilən bakteriyalar mövcuddur. Təhlükəli bakteriyalar hətta insanı öldürmək gücünə malikdir.**




# "Ölüm saçan" Hollandiya gülləri Bakı mağazalarında?!

## Rusiya hökuməti Hollandiyadan gətirilən güllərin bu ölkəyə daxil olmasına qadağa qoyub; təkcə ötən il Hollandiyadan Azərbaycana gətirilən güllərin dəyəri təxminən 189 milyon dollar olub

Xatırladaq ki, bir neçə il bundan əvvəl Rumıniya da Hollandiyadan gül idxalını qadağan etmişdi. Onlar da bu güllərdə təhlükəli bakteriyalar olduğunu bildirmişdilər. Üstəlik, Hollandiyada büdcə gəlirlərinə ciddi təsir edən gül biznesinə dair sənədlərin də qaydasında olmadığı bildirilirdi. Bütün bunlara baxmayaraq, Hollandiya hökuməti Rumıniyanın hərəkətini şantaj kimi qiymətləndirərək idxal etdiyi güllərdə bakteriyaların olmasını təkzib etmişdi.

Bütün dünyada gül bazarında Hollandiya birincilik təşkil edir desək, yanılmarıq. Paytaxt Bakının da nüfuzlu gül salonlarını daha çox Hollandiyadan gətirilən güllər bəzəyir. Onlardan "Mos Lcslands", "Gerberia Mi Aqua Orance" adlı güllər daha məşhurdur. Xüsusən bayram günlərində, ən əsası Gül bayramında Hollandiyadan gətirilən güllərə böyük ehtiyac olur.

**Lakin bu güllərin təhlükəli olub-olmaması barədə ölkədə heç bir araşdırma aparılmır. Bunu Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da təsdiq edir. E.Hüseynovun sözlərinə görə, ölkəyə daxil olan xarici güllərə nəzarət çox aşağı səviyyədədir:** "Əgər Rusiyanın ekspertizası Hollandiyadan gətirilən güllərin təhlükə mənbəyi olduğunu müəyyənləşdiribsə, demək ki, bizim ölkəmiz üçün də təhlükə var. Səhiyyə Nazirliyi bu məsələyə ciddi yanaşmalıdır. Xaricdən gətirilən digər məhsullar kimi güllər də ölkəyə daxil olarkən sahibkarlardan yalnız bir dəfə sertifikart tələb edilir, daha sonra isə 1-2 il həmin məhsullara yenidən nəzarət olmur. Nəticədə ölkəyə təhlükəli məhsulların daxil olması davam edir. Halbuki ölkəyə daxil olan məhsullar hər ay nəzarətdən keçməlidir. İctimai nəzarət də bu məsələdə öz sözünü deməlidir".

**Bəs görəsən, gül satıcıları müştərilərə böyük zövqlə təklif etdikləri Hollandiya güllərinin təhlükəli bakteriya daşıyıcısı olduğundan xəbərdardırlarmı?**

**Sualımıza cavab tapmaq üçün şəhərin bir neçə gül salonunda olduq. Metronun "Neftçilər" stansiyasının yaxınlığında yerləşən, günün 24 saatı müştərilərə xidmət göstərən "Rozmari" gül salonunda Hollandiyadan gətirilən güllərin əksəriyyət təşkil etdiyinin şahidi olduq. Satıcı oğlanın dediyinə görə, bu güllər daha gözəl estetik görünüşə malik olduğundan müştərilər daha çox bu güllərə üstünlük verir:** "Bizim salonda Almaniya, İsrail və digər Avropa ölkələrindən gətirilən güllər var. Lakin Hollandiyadan gətirilən güllər daha çox müştəri cəlb edir. Bunlar müxtəlif rənglərdə olan qızılgüllər, səhləb çiçəyi, çoban yastığı, zanbaq gülləridir".





**Satıcı yerli istehsal güllərinə marağın az olma səbəbindən də danışdı:** "Yerli güllərdən əsasən dibçək güllərini satırıq ki, bunlar da Bakıətrafı kəndlərdən gətirilir. Əvvəllər yerli qızılgüllərə az da olsa maraq var idi. Hazırda çox az hallarda kimsə yerli qızılgül sifariş edir. Doğrudur, bu güllərin qoxusu daha yaxşıdır, lakin həm görünüşünə, həm də davamlılığına görə Hollandiyadan gətirilən qızılgüllər müştəriləri daha çox cəlb edir".

Satıcı ilə söhbətimizdən məlum oldu ki, digər satıcılar kimi, o da Hollandiyadan gətirilən güllərin təhlükəli bakteriya mənbəyi olmasından tamamilə məlumatsızdır.

"8-ci kilometr bazarı" adlanan ərazidə yerləşən daha bir gül salonunda olduq. Yenə də həmin Hollandiya gülləri... Bu salonda isə yerli güllər demək olar ki, yox idi. Satıcı oğlanın dediyinə görə, satışa bəzən yerli güllərdən qərənfil gətirilir. Lakin əhali bu gülə əsasən 20 Yanvarda və yaxud da yaxınlarının qəbri üstünə gedərkən ehtiyac duyur.

Salonun ətrafında vurnuxan bir alıcı ilə söhbətləşdik. Məlum oldu ki, alıcı yaxınlarından birinin ad günü üçün gül seçməkdə çətinlik çəkir. Çünki satılan güllərin əksəriyyəti xaricdən gətirilir, onlar da həm bahadır, həm də qoxuları çox az olur.

Hər kəsə məlumdur ki, ölkədə gülçülük sahəsi çox geriləyib.

Qeyd edək ki, sovet dövründə ölkəmizdə gülçülük sovxozu, bir neçə gül istixanaları var idi ki, burada yetişdirilən güllər nəinki Azərbaycanda, hətta bütün SSRİ-də məşhur idi.

Bəs indi niyə yerli fermerlər gül sektoruna çox az maraq göstərir?

**İqtisadçı ekspert Vüqar Bayramlı bildirdi ki, gülçülük sektorunun inkişafı üçün dövlət tərəfindən sahibkarlara müəyyən güzəştlər edilməlidir:** "Sovet dövründə Azərbaycan ittifaq ölkələri arasında ən çox gül istehsal edən ölkə idi. Çox təəssüf ki, sovet hakimiyyəti dağıldıqdan sonra ölkəmizdə gülçülük sektoru xeyli zəiflədi. Yerli güllər Avropadan, o cümlədən Hollandiyadan, Ekvadordan gətirilən güllərlə rəqabət aparmaq iqtidarında olmadı. Buna görə də xaricdən gətirilən güllərə maraq artdı. Nəticədə ölkəmiz bu sahədə artıq ixracatçı deyil, idxalçı ölkəyə çevrildi. Təkcə ötən il Hollandiyadan ölkəyə gətirilən güllərin dəyəri təxminən 189 milyon dollar olub.

Ölkədə gül istehsalının zəifləməsinə səbəb olan amillərdən biri də bu sahə üçün önəmli olan kommunal xidmətlərin baha olmasıdır. Sovet dövründə gül istehsalçıları təbii qazdan, elektrik enerjisindən istifadə üçün ödənişlər etmirdi. Hazırda isə kommunal xidmətlər çox baha olduğundan fermerlər bu sahəyə maraq göstərmək istəmir.

Bu sektorun yenidən inkişafı üçün dövlət dəstəyi lazımdır. Dövlət gül sektorunun inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirməli, fermerlərə müəyyən güzəştlərə getməlidir. Nəticədə həm ölkə iqtisadiyyatı daha da yüksələr, əhali də ucuz və keyfiyyətli, təhlükəsiz güllər əldə etmiş olar".

**Onu da qeyd edək ki, Azərbaycanda güllər, onların tərkibləri, xüsusiyyətlərini öyrənən hansısa qurum yoxdur. Hollandiya və Rusiyada isə floristika ilə bağlı müəssisələr fəaliyyət göstərir.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov ermənilər tərəfindən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşmək istəyir.**



Elçin Behbudov

# Elçin Behbudov azərbaycanlı girovlarla görüşmək istəyir

## Hüquq müdafiəçisi ordudakı vəziyyətin yaxşılığa doğru dəyişdiyini dedi: "Səfər Əbiyevin zamanında..."

E.Behbudov "Yeni Müsavat"a açıqlamasında deyib ki, BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığına, İşgəncələrə Qarşı Komitəsinə, Avropa Şurasının Parlament Assambleyasına, baş ofisi Cenevrədə yerləşən və rəhbərlik etdiyi komitənin üzv olduğu İşgəncələrə qarşı Ümumdünya Təşkilatına müraciət edib: "Yazmışam ki, əsirlər Artur Baqdasaryan və Andronik Qriqoryana Azərbaycan dövləti çox humanist münasibət göstərdiyi bir vaxtda ermənilər Azərbaycanın işğal olunmuş ərazisində girov götürdükləri Dilqəm Əsgərovla və Şahbaz Quliyevə amansız, qeyri-insani rəftar göstərirlər. Beynəlxalq təşkilatlardan xahiş etmişəm ki, bu məsələyə münasibətlərini açıqlasınlar, rəsmi qiymət versinlər".

**E.Behbudov deyib ki, beynəlxalq təşkilatlardan girovların ailə üzvlərinin onlarla görüşməsinə imkanların olub-olmaması ilə də maraqlanıblar:** "Maraqlanırdılar ki, əsirlər Artur Baqdasaryan və Andronik Qriqoryanla onların yaxınları, girovlar Dilqəm Əsgərovla və Şahbaz Quliyevin övladları ilə görüş təşkil oluna bilərmi. Dedim ki, əlbəttə ki, bu mümkündür. Qoy ermənilərin yaxınları özləri gəlib Artur Baqdasaryan və Andronik Qriqoryana olan humanist münasibəti görsünlər. Halbuki Baqdasaryan Azərbaycan ərazisinə təxribat-diversiya qrupunun tərkibində gəlib. Özüm də beynəlxalq təşkilatlara müraciət hazırlamışam ki, onların nümayəndələrinin iştirakı ilə Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşümə şərait yaratsınlar".

**E.Behbudov Azərbaycan ordusunun hazırkı durumu ilə bağlı da fikirlərini bölüşüb. Deyib ki, Zakir Həsənovun Azərbaycanın müdafiə naziri təyin edilməsi orduda vəziyyəti yaxşılığa doğru dəyişib:** "Zakir Həsənovun müdafiə naziri təyin olunması çox doğru addım idi. O, daxili qoşunların komandanı olarkən orada qayda-qanun ən yüksək səviyyədə idi. Əvvəlki müdafiə nazirinin dövründə olan şikayətlərdən əsər-əlamət yoxdur. Təəssüf ki, son vaxtlar müdafiə naziri, Müdafiə Nazirliyi haqda xoşagəlməyən kampaniya aparılır. Belə hallar yolverilməzdir".

**E.Behbudov bildirdi ki, Zakir Həsənov müdafiə naziri təyin olunduqdan sonra ordudakı işgəncə faktları ilə bağlı rəhbərlik etdiyi komitəyə heç bir şikayət daxil olmayıb:** "Səfər Əbiyevin zamanında da biz orduda yoxlamalar aparırdıq. Məni qəbul etməsi ilə bağlı nazirə dəfələrlə müraciət etmişəm. Problemləri, faktları birbaşa olaraq onun diqqətinə çatdırmaq istəmişəm. Amma o məni heç vecinə də almayıb. İndi isə vəziyyət dəyişib. Fikirlərimizi nazirə çatdıra bilirik".

**E.Behbudov orduda konflikt ocaqlarına çevrilən növbəli qaydada təmizlik işləri ilə əsgərlərin məşğul olması qaydasının ləğvini Z.Həsənovun idarəçilik qabiliyyəti kimi qiymətləndirdi:** "Əsgəri yeməkxanaya təmizlik işləri ilə məşğul olmağa göndərirdilər. Getmək istəməyənləri döyürdülər, təhqir edirdilər. Zakir Həsənov nazir təyin olunandan sonra bu qayda ləğv olundu. Bu gün əsgər tam şəkildə vətənə xidmət etməklə məşğuldur, vətənin keşiyində durmaq üçün hərbi döyüş hazırlığı keçir. Əsgərin yeməyi, içməyi və təmizliyi ilə mülki şəxslər məşğul olur. Bu qayda orduda konflikt ocaqlarının aradan qalxmasına, əsgər-zabit münasibətlərinin yeni mərhələyə çıxmasına səbəb olub. Bu, Zakir Həsənovun Ali Baş Komandan, ordu, xalq qarşısında ən böyük xidmətidir".

❑ E.MƏMMƏDƏLİYEV



# Polisləri döyən "general oğlu" həbs edildi

**Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu general oğlunun polis əməkdaşının üstünə maşın sürməsi barədə yayılan xəbərlərlə bağlı məlumat yayıb. Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğunun birgə məlumatında bildirilir ki, bəzi KİV-də paytaxtın Yasamal rayonu ərazisində guya valideyni hüquq-mühafizə orqanlarında işləyən və general ali xüsusi rütbəsi daşıyan şəxsin idarə etdiyi avtomobillə həmin ərazidə xidmət aparan polis əməkdaşlarının üstünə sürərək onlara xəsarət yetirməsi barədə işin hallarına uyğun olmayan informasiyalar dərc olunub.**

"Belə ki, 25 iyul, 2015-ci il tarixdə saat 17 radələrində Yasamal rayon sakini, 1994-cü il təvəllüdlü Hətəmov Elçin Elşad oğlu rayon ərazisində xidməti vəzifələrini yerinə yetirən Yasamal Rayon Polis İdarəsinin Post-Patrul Xidməti bölüyünün əməkdaşları Arif Qasımov və Tariyel Mahmudovun yol hərəkətinin tənzimlənməsi ilə bağlı qanuni tələblərinə tabe olmayaraq sonunculara təpik və yumruqla həyat və sağlamlıqları üçün təhlükəli olan zor tətbiq edərək xəsarətlər yetirməsində kifayət qədər əsaslı şübhələr olduğundan faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 315.2-ci (hakimiyyət nümayəndələrinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddəsi ilə cinayət işi başlanıb.

E.Hətəmov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində rayon məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

Göstərilənlərlə yanaşı, bildiririk ki, E.Hətəmovun valideynləri hüquq-mühafizə orqanlarının əməkdaşı deyil və heç bir ali xüsusi rütbə daşımırlar" - deyə məlumatda vurğulanır.

❑ E.HÜSEYNOV

# Fazil Məmmədovun özünüxilas əməliyyatı

## Vergilər naziri prezidentin danlağından sonra kollegiya iclası çağırıb, özünütənqid ruhunda çıxış edib; üstəlik, vətəndaşlara sms-müraciətlər təşkil etdirib sahibkarlara qahmar çıxmaq görüntüsü yaradır; onun bu cəhdləri "yoxa çıxan" milyonları geri qaytaracaqmı?

**Vergilər naziri Fazil Məmmədov düşdüyü vəziyyətdən çıxmaq üçün yollar axtarır. Vergi ödəyicilərinə sms göndərilməklə onlardan vergi müfəttişlərinin qanunsuz hərəkətləri haqda məlumat vermələri istənilir. Belə bir sms-müraciətin meydana çıxmasını 13 iyul müşavirəsindən sonra təbii qarşılamaq olar. Bunu nazirin özünüxilas əməliyyatının elementi kimi də qəbul etmək mümkündür. Bəs həmin müşavirədə Fazil Məmmədovun hədəfə gəlməsini şərtləndirən hansı addımları olub?**

İndi məlum olur ki, naziri çətin vəziyyətə salan Avropa Oyunlarından əvvəl verdiyi göstərişlərdir. Vergilər nazirinin vergi borcunu ödəməyən oliqarxların şirkətlərinin siyahısını hazırlayıb onlara hücuma keçməsi onun özünün gizlinlərini ortaya çıxarıb. Oliqarxlardan biri israrla onun şirkətlərindən vergidən əlavə pul tələb edən vergi müfəttişlərinə tələb etdikləri vəsaitlərin ödənməsi tapşırığını verib. Digər tərəfdən isə vergi müfəttişlərinə ödənilən rəsmi və qeyri-rəsmi vəsaitlərin siyahısını hazırlatdırıb. Sonradan həmin siyahı yuxarılara təqdim edilib. Məlum olub ki, şirkətlərdən qeyri-rəsmi alınan külli miqdarda vəsaitlərin əhəmiyyətli hissəsi yoxa çıxıb. Bundan sonra qeyri-rəsmi olaraq digər şirkətlərdə də monitorinqlər aparılıb, sahibkarların ödədiyi vəsaitlərlə daxil olan vəsaitlərin uyğunluğu yoxlanıb. Ortaya kəskin fərqlər çıxıb. Bundan sonra vergilər naziri üçün qara zolaq başlayıb. Nazirin tutduğu postdan uzaqlaşdırılması da gündəmdədir. Fazil Məmmədova "itirilmiş" vəsaitlərin geri qaytarılması üçün vaxt verilib...

**Yada salaq ki, iyulun 13-də prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən müşavirədə Vergilər Nazirliyinin fəaliyyəti ən sərt şəkildə tənqid olundu.**

"Mənə məlumatlar gəlir ki, son vaxtlar Vergilər Nazirliyi özünü çox sərt aparır, tələbkardır. Burada biz iki məsələni bir-birindən ayırmalıyıq. Vergilər Nazirliyi çalışmalıdır ki, vergi ödəyiciləri vergiləri birmənalı olaraq qanuni şəkildə, tam şəkildə versinlər. Burada heç bir başqa söhbət və güzəşt ola bilməz. Ancaq heç bir başqa əsassız tələb irəli sürülməməlidir. Mən bunu qeyd etməliyəm. Ona görə sahibkarlar, sadə dillə desək, dövlətin pulunu 100 faiz verməlidirlər, vəssalam. Ondan başqa, heç kimə 1 manat verməməlidirlər. Bax, mən onlara tapşırıram və göstəriş verirəm" - deyə, İ.Əliyev müşavirədə bildirmişdi.

Maraqlıdır ki, müşavirədən az əvvəl 2015-ci ilin yanvar-iyun ayları ərzində qeyri-neft-qaz sektoru üzrə büdcəyə 2 milyard 289 milyon 221,5 min manat, Vergilər Nazirliyinin xətti ilə isə 3 milyard 346 milyon 306,8 min manat vəsait daxil olması haqda məlumat yayılmışdı. Bildirilirdi ki, Vergilər Nazirliyi proqnoz tapşırığı 100,8 faiz əməl edib. Belə bir halda Vergilər Nazirliyinin kəskin tonlarla ittiham olunmasını təsadüf saymaq olarmı?

Deməli, ortada ciddi əsaslar olub. Məlum müşavirədə F.Məmmədovun özünün iştirak etməməsi də diqqətdən kənar qalmayıb. Belə məlumatlar var ki, F.Məmmədov müşavirədən az əvvəl kəskin şəkildə danlanıb. Bundan sonra onun səhhətində ciddi problemlər yaranıb. Hətta nazirin ürəyinin getməsi haqda məlumat da var. Bildirilir ki, buna görə müşavirə zamanı xoşagəlməz durumla üzləşməmək üçün Fazil Məmmədovu ora dəvət etməyiblər. F.Məmmədov həmin gün Qazaxda vətəndaşları qəbul etməyə göndərilib. Nazirin vətəndaşları qəbul edib dinləməsi yaxşıdır, amma prezident yanında müşavirəyə gəlməyib bu addımı atmaq hazırkı idarəçilik qaydalarına ziddir. Üstəlik, hələ iyun ayında mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2015-ci ilin iyulunda şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli açıqlanmışdı və orada vergilər nazirinin qəbulunun iyulun 3-də baş tutacağı bildirilirdi...



Fazil Məmmədov

Hazırda vergilər naziri düşdüyü durumdan çıxmaq üçün yollar arayır. Sms-müraciətlə vəziyyətdən çıxmaq olacaqmı?

Yeri gəlmişkən, Vergilər Nazirliyində Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarımilliyinin yekunları və qarşıda duran vəzifələrə bağlı 13 iyul tarixli iclasına həsr olunmuş kollegiya iclası keçirilib.

Nazirlikdən "APA-Economics"ə verilən məlumata görə, kollegiya iclasında vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov çıxış edib. Nazirlər Kabinetinin 13 iyul tarixli iclasında prezident İlham Əliyevin ayrı-ayrı vergi orqanlarının ünvanına səsləndirdiyi iradların qısa müddətdə aradan qaldırılması istiqamətində artıq ciddi addımlar atıldığını bildirən nazir neqativ hallara yol verilməməsi üçün zəruri tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verib. Sahibkarların fəaliyyətinə süni maneələrin və qanunsuz müdaxilələrin yolverilməzliyini vurğulayan vergilər naziri vətəndaşlardan daxil olan ərizə və şikayətlərin daha diqqətlə araşdırılması, fəaliyyətində nöqsanlara yol vermiş vergi xidməti orqanı əməkdaşları barədə ciddi tədbirlər görülməsinin vacibliyini diqqətə çatdırıb.

Kollegiya iclasında prezident İlham Əliyevin Nazirlər Kabinetinin 13 iyul tarixli iclasındakı çıxışı zamanı vergi orqanlarına verilmiş tapşırıqlar 2015-ci ilin ikinci yarımilliyi və qarşıda duran dövrlər üçün Fəaliyyət Planı kimi qəbul olunub, eləcə də vergi inzibatçılığının optimallaşdırılması məqsədilə işçi qrupunun yaradılması barədə qərar verilib.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015

# Seçkini boykot çağırışları etirazla qarşılandı

## Mirmahmud Mirəlioğlu: "Seçkini boykot ediriksə, seçkidə iştirak etməyənləri satqın adlandırmaq kökündən yanlış olan yanaşmadır"

**Ötən həftə Milli Şuranın sessiyasında 1 noyabrda keçiriləcək parlament seçkiləri məsələsi müzakirə edilib. Qurumun sədri Cəmil Həsənli çıxışında deyib ki, hazırda seçkilərin keçirilməsi üçün minimum şərait yoxdur.**

Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü, AXCP sədri Əli Kərimli isə çıxışında bildirib ki, hər şey əvvəldən bəlli olan seçkidə iştirak etməyəcəklər. AXCP sədri Milli Şura olaraq sessiyadan sonra cəmiyyətə və hökumətə çox aydın şəkildə mesajlar verilməsini, sessiyanın nəticəsi olaraq, Milli Şura Koordinasiya Şurasına qurumun seçkiyə münasibətini ifadə edən sənəd qəbul etməsini təklif eləyib.

Bir sıra siyasi təhlilçilər hesab edir ki, Milli Şuranın rəhbərliyi bununla əslində seçkiləri boykot edəcəklərinin, seçkidə iştirak edəcək digər müxalif qüvvələri isə "nəticəsi əvvəldən bəlli olan seçkiyə demokratik don geyindirən satqınlar" adlandıracaqlarının anonsunu vermiş olublar.

Seçkiləri boykot etmək məsələsinə digər müxalif partiyaların münasibətinə gəlincə, Milli Şuradan kənarda olan partiyalar boykot mövqeyini dəstəkləmirlər.


Mirmahmud Mirəlioğlu

**"Azadlıq 2015" seçki blokunda təmsil olunan KXCP-nin sədri Mirmahmud Mirəlioğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, kimin nə deməyindən asılı olmayaraq onlar seçkidə iştirakı doğru sayırlar:** "KXCP illərdir ki, bütün seçkilərdə, hətta heç kəsin iştirak etmədiyi seçkilərdə iştirak edib. Bunun bir sıra xüsusi səbəbləri var. Birincisi budur ki, siyasi partiyanın ən böyük silahı seçkilərdə iştirak eləməkdir və bütün siyasi partiyalar öz nizamnamə və məramnamələrində birmənalı şəkildə vurğulayıblar ki, fəaliyyət istiqamətlərindən biri seçkilərdə iştirakdır. İkinci səbəb bundan ibarətdir ki, KXCP-nin Azərbaycanın bütün inzibati əraziləri üzrə nümayəndələri, təşkilatları var. Ona görə də KXCP heç bir müxalif partiyanın iştirak etmədiyi bələdiyyə seçkilərində belə iştirak edib. Bunu doğru sayırıq. Olub ki, biz də ayrı-ayrı adla fəaliyyət göstərdiyimiz zamanlarda seçkini boykot etmişik. 1998-ci il nümunəsi var. Amma hər kəs də bunu yaxşı bilir ki, həmin vaxt hamının bir arada olub guya seçkini boykot etməsi birbaşa Əbülfəz Elçibəyin seçkidə iştirak etməsinə mane olmaq üçün olub. İllər keçəndən sonra da bu məsələyə xüsusi aydınlıq gətirilib ki, kaş belə olmayaydı, düz etmədik və sair. Ona görə də indi kimin nə deməyindən asılı olmayaraq biz seçkidə iştirakı doğru sayırıq. Partiyanın qərarı da var. Seçkidə iştirak etməmək də hər kəsin doğal haqqıdır, özləri bilərlər. Ona görə də biz seçkidə iştirak ediriksə, hər kəsdən tələb edə bilmərik ki, sən də seçkidə iştirak etməlisən. Eyni zamanda seçkini boykot ediriksə, seçkidə iştirak etməyənləri satqın adlandırmaq da kökündən yanlış olan yanaşmadır. Biz başqalarının mövqelərinə, taktikalarına hörmətlə yanaşığımız kimi, hesab edirik ki, bu, qarşılıqlı olmalıdır.

Biz seçkidə iştirak ediriksə, bu heç də o demək deyil ki, hakimiyyət istədiyini etməlidir, seçkini saxtalaşdırmalıdır, demokratik seçki mühiti yaratmamalıdır, Seçki Məcəlləsi təkmilləşməməlidir".

**M.Mirəlioğlu deputatlığa namizədlərinin müəyyənləşməsi işinin davam etdiyini də açıqladı:** "Mərkəzi seçki qərargahı var. Mərkəzi seçki qərargahı KXCP-nin daxil olduğu "Azadlıq 2015" seçki blokunun qərargahıdır. Bloka daxil olan partiyaların rəhbərliyi burada təmsil olunurlar. Partiyaların rəhbərliyinə daxil olan insanların namizəd olacaqları dairələr müəyyənləşdirilib".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı isə "Yeni Müsavat"a açıqlamasında seçkini boykot bəyanatlarının ciddi olmadığını və bu taktikanın heç bir müsbət effekt verməyəcəyini bildirdi:** "Siyasi partiya, siyasətçi seçkilərdə iştirak etməlidir. Mən Əli Kərimlini seçkini boykot etməyə yox, mənim namizədliyimi irəli sürəcəyim 60 saylı Salyan seçki dairəsindən namizədliyini irəli sürməyə dəvət edirəm. Əli Kərimlini mənası olmayan boykot bəyanatından əl çəkib mənimlə mübarizə aparmağa dəvət edirəm. Gəlsin, seçkidə bərabər mübarizə aparaq".

❑ Etibar SEYİDAĞA



# YAP-ın yeni seçki taktikası

## Fəzail Ağamalı: "YAP belə bir taktika ilə seçkiyə qatılarsa, seçkilər daha dinamik, daha gərgin gedəcək"

**1 noyabr parlament seçkiləri yaxınlaşdıqca siyasi partiyaların seçki taktikalarının necə olacağı maraq doğurur. Artıq hakim Yeni Azərbaycan Partiyası seçki taktikasının bəzi detallarını açıqlayıb. Hakim partiyanın icra katibinin müavini Siyavuş Novruzov və şöbə müdiri Aydın Mirzəzadə mediaya açıqlamalarında bildiriblər ki, əvvəlki parlament seçkilərindən fərqli olaraq builki seçkilərdə YAP partiya olaraq 125 dairənin hər birindən namizəd irəli sürmək niyyətindədir.**

İndiyə qədər keçirilən parlament seçkilərində YAP təxminən 100 dairədən partiya olaraq namizədlə seçkiyə qatılırdı. Bir sıra dairələrdə namizəd irəli sürmürdü və həmin dairələrdə hakimiyyətə yaxın və ya loyallığı ilə seçilən partiyaların namizəd olan sədrlərinə ya dəstək verilirdi, ya da mane olunmurdu. Lakin indi belə görünür ki, 1 noyabr parlament seçkilərində YAP bu ənənəni pozmaq fikrinə düşüb. Odur ki, indiyə qədər seçkilərdə hakim partiyanın dəstəyini hiss edən bir sıra deputat partiya sədrlərinin işi bu dəfə bir qədər çətinləşə bilər, onlar YAP-ın namizədi ilə rəqib olaraq mübarizə aparmalı ola bilərlər.


Fəzail Ağamalı

**YAP-ın 125 dairənin hamısından namizəd irəli sürəcəyi ilə bağlı yaranan vəziyyət barədə danışan hakimiyyətyönlü Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı bildirdi ki, YAP-ın 125 dairənin hamısından partiya olaraq namizəd irəli sürməsi hakim partiyanın qarşıdan gələn parlament seçkilərində tətbiq etdiyi yanaşmadır. Buna hörmətlə yanaşmaq lazımdır. Çünki hər bir partiyanın seçkilərdə öz maraqları, tətbiq etdiyi taktika var:** "Doğrudan da indiyə qədər keçirilən parlament seçkilərində YAP-ın dövlətçilik mövqeyində duran və bir sıra məsələlərdə YAP-la baxışları üst-üstə düşən, müttəfiqlik edən partiyalarla müəyyən anlaşmaları olurdu. Bu anlaşmalara əsasən müəyyən dairələrdə YAP tərəfindən namizəd irəli sürülmürdü. Ancaq indi qarşıdan gələn parlament seçkilərində fərqli yanaşma var. Hakim partiyanın icra katibinin müavini Siyavuş Novruzovun bununla bağlı açıqlamaları var və bu açıqlama kifayət qədər rəsmi açıqlama kimi qəbul edilməlidir. Mən buna hörmətlə yanaşdığımı qeyd edərək bildirmək istəyirəm ki, hər bir partiyanın özünün seçkilərdə öz yanaşması var və bunu hörmətlə qarşılamaq lazımdır. Baxaq görək, əgər doğrudan da YAP belə bir taktika ilə seçkiyə qatılarsa, əlbəttə, seçkilər daha dinamik, daha gərgin, daha ciddi mübarizə şəraitində gedəcək. Bu mübarizə şəraitində mən güman etmirəm 125 dairənin hamısını YAP götürə biləcək. O yerlərdə YAP qalib gələcək ki, həmin yerlərdə onlar daha nüfuzlu namizədlər irəli sürürlər, həmin şəxslərin həmin dairələrdə yetərincə nüfuzu var. Namizədin qalib gəlməsi partiyanın nüfuzu ilə bərabər, fərdin özünün həmin bölgədə hansı nüfuza, hansı imicə malik olmasından asılıdır. Bu, vacib şərtlərdən biridir".

**F.Ağamalı hesab edir ki, YAP parlament seçkilərində üstün mövqe nümayiş etdirəcək və mandatların böyük əksəriyyətini qazanacaq. Çünki hakim partiyanın resursları çox genişdir:** "Ancaq digər partiyalardan olan nüfuzlu şəxslərin qalib gəlməsinə nikbin yanaşıram və düşünürəm ki, onların da qalib gəlmək şansları yetərincədir. Çünki onlar uzun müddətdən bəri seçilmiş olduqları dairələrdə xeyli iş görüblər, insanlarla işləyiblər, seçicilərin qaldırdığı məsələlərin həllində fəallıq göstəriblər, dövlət quruculuğunda, ölkənin daxili və xarici siyasətinin reallaşmasında fəallıq göstəriblər. Bütün bunlar, məncə, seçicilərin diqqət mərkəzində olacaq və onlar da bu seçkilərdən uğurla çıxa biləcəklər. Bir sözlə 1 noyabr parlament seçkiləri kifayət qədər maraqlı, gərgin mübarizə şəraitində keçəcək".

**F.Ağamalı namizədliyini hazırda deputatı olduğu 60 saylı Salyan seçki dairəsindən irəli sürmək niyyətində olduğunu açıqladı:** "Artıq iki çağırışda həmin dairədən namizədliyimi irəli sürmüşəm və seçicilərimlə kifayət qədər iş aparmışam, onların problemlərinin həlli üçün işlər görmüşəm, seçicilərin qaldırdığı problemlərlə bağlı cənab prezidentə bir neçə dəfə müraciət etmişəm. Həmin müraciətlər müsbət qarşılanıb və məsələlərin yerinə yetirilməsi istiqamətində addımlar atılıb, prezident sərəncamlar imzalayıb. Eyni zamanda Salyanın işıq, yol, məktəb, qaz və digər problemləri ilə bağlı 4 dəfə baş nazir Artur Rasizadənin qəbulunda olmuşam, ayrı-ayrı nazirlərlə görüşərək bu məsələlərin həlli üçün yetərincə fəallıq göstərmişəm. Əminəm ki, bütün bunlar hörmətli seçicilərin diqqətindədir və onlar bunu dəyərləndirirlər".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015

# Ermənistanda vəziyyət yenə gərginləşdi

## İşğalçı ölkədə etirazların səngiməməsinin sirri

**İşğalçı Ermənistanda bir aydan artıqdır başlayan etiraz aksiyaları yenidən genişlənir. Elektrik enerjisi tariflərinin artırılmasına qarşı çıxan "Qalx, Ermənistan" hərəkatı İrəvanın mərkəzindəki Respublika meydanında 72 saatlıq oturaq piket keçirməyə qərar verib. Hərəkatın bununla bağlı yaydığı bəyanatda bildirilir: "Serj Sərkisyanın 27 iyun tarixli çıxışından bir ay keçməsinə baxmayaraq, elektrik enerjisi tariflərinin artırılması məsələsi həll də nizamlanmamış qalmaqdadır".**

Bu səbəbdən "Qalx, Ermənistan" Vətəndaş Təşəbbüsü Şurası bu gün axşam saatlarından etibarən 72 saatlıq oturaq piket keçirməyə qərar verərək Baqramyan prospektindəki aksiyalar zamanı səsləndirilən bütün tələbləri yenidən irəli sürür.

İrəvan polisi isə elektrik enerjisi tariflərinin artırılmasına qarşı çıxan "Qalx, Ermənistan" hərəkatının Respublika meydanında 72 saatlıq oturaq piket keçirməsinə mane olmağa çalışıb.

APA-nın "TASS"a istinadən verdiyi xəbərə görə, polis əməkdaşları canlı sədd yaradaraq etirazçılara meydana doğru irəliləməyə imkan verməyiblər. İrəvan polis rəisinin müavini Valeri Osipyanın sözlərinə görə, aksiya təşkilatçıları "özlərinə diqqəti cəlb etmək üçün asayiş keşikçiləri ilə qarşıdurma yaratmağa cəhd edirlər"

"Qalx, Ermənistan" vətəndaş hərəkatı isə bəyanat yayaraq bildirib ki, Ermənistan polisi uzun müddət Respublika meydanını bağlı saxlaya bilməyəcək. Ona görə də polis vətəndaşların qanuni tələbləri qarşısında geri çəkilməyə məcbur olacaq. Bəyanatda qeyd olunur ki, vətəndaş cəmiyyəti xalqın əleyhinə olan rejimə qarşı dinc mübarizədə polisin qeyri-qanuni əməllərinə tabe ola bilməz. Bu üzdən hərəkat üzvləri meydanın mərkəzində oturaq aksiya keçirməkdə israrlıdır.


Petr Shelomovskiy (RF)

Qeyd edək ki, işğalçı Ermənistanda bir aydan artıqdır etiraz aksiyaları başlayıb və səngimir. İki gündür daha da şiddətlənib. İşğalçı ölkədə bu prosesin nədən səngimədiyi, eyni zamanda hakimiyyətin insanları meydanlardan çəkilmək üçün daha kəskin addımlara getməməsinin nə ilə bağlı olduğu maraq doğurmaya bilməz.

**Politoloq Ərəstun Oruclu** hesab edir ki, Ermənistanda etiraz hərəkatının hələ də davam etməsində bir sıra amillərin rolu var. İlk növbədə Ermənistan cəmiyyətində hələ ki ən azı müəyyən hüquq və azadlıqların təmin olunması qalıb. O cümlədən sərbəst toplaşmaq azadlığının rahat şəkildə həyata keçirildiyini görmək mümkündür. Birinci səbəb budur. İkinci səbəb budur ki, Ermənistan hakimiyyəti yüksək ehtimalla bu prosesin özündə maraqlıdır: "Görünür, Ermənistan hakimiyyətinin hansısa siyasi planlarına uyğun şəkildədir və ona görə də hakimiyyət radikal addımlara getmir. Üçüncüsü, mən istisna eləmirəm ki, burda xarici faktorların da rolu var. İlk növbədə erməni diasporunun rolu ola bilər. Hələlik dəqiq bilinmir ki, bu mitinqlərin arxasında kim dayanır. İstisna deyil ki, bu elə Rusiyadakı müəyyən dairələr olsun. Çünki Rusiyanın daxilində də müxtəlif var və bu maraqların toqquşmasının şahidi oluruq. Mən ilk növbədə Kreml oliqarxiyasının hərbi-sənaye kompleksini nəzərdə tuturam. Arada ziddiyyətlər var və şübhəsiz ki, bu özünü bir çox məsələlərdə göstərir. Məsələn, bugünlərdə gördük ki, Ermənistana Rusiyanın Hərbi Kəşfiyyat Qurumunun Baş Kəşfiyyat İdarəsinin direktoru gəldi. Belə səfərlər heç nədən baş vermir. Düzdür, bunu bir çoxları Azərbaycan-Ermənistan cəbhə xəttində gərginliyin artması ilə izah elədilər. Ancaq mən düşünürəm ki, sırf Ermənistandakı daxili siyasi səbəblərlə bağlıdır. Digər tərəfdən, biz unutmayaq ki, Ermənistanda müəyyən Qərb faktoru da var. Bu faktor Azərbaycandakından daha güclüdür. Ən azı ona görə ki, Ermənistanın aparıcı Qərb ölkələrində güclü diaspora qurumları mövcuddur. Onlar Ermənistanın Qərbə inteqrasiya olunmasında maraqlıdır. Bir sözlə, bütün bunları nəzərə alanda deyərdim ki, Ermənistanda proseslərin səngiməməsində kompleks səbəblər var".

**❑ E.SEYİDAĞA**

# Politoloq həbs təhlükəsi ilə üzləşdiyini deyir

## Ərəstun Oruclu: "Bu barədə yaxın günlərdə çox tutarlı, konkret açıqlamam olacaq"


Ərəstun Oruclu

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, sabiq MTN zabiti, politoloq Ərəstun Oruclu facebookda diqqətçəkən statusla çıxış edərək üstüörtülü şəkildə özünün də həbs təhlükəsinin mövcudluğuna toxunub və hakimiyyətə sərt ismarışlar göndərib. Politoloq qeyd edib ki, təxminən 3 ay əvvəl Avropa ölkələrindən birinin səfirliyində bir neçə aparıcı dövlətin səfirinin və beynəlxalq təşkilatların nümayəndələrinin ölkənin ictimai-siyasi fəalları ilə görüşü keçirilirdi. Görüş zamanı Azərbaycan üçün İŞİD təhdidindən danışarkən, bu terrorçu təşkilatın sıralarında təxminən 850 - 1200 Azərbaycan vətəndaşı olduğunu bildirib. Görüşdə iştirak edən bir hakimiyyət təmsilçisi isə onu yalan danışmaqda ittiham eləyib, halbuki onda olan məlumata əsasən, səlahiyyətli dövlət orqanlarının ölkə rəhbərliyinə təqdim etdiyi hesabatda bu rəqəm 1500 nəfər göstərilib: "Son günlər terrorçu təşkilatla bağlı yayılan məlumatlarda və Türkiyədə aparılan həbslərdə azərbaycanlı radikalların xüsusi diqqət çəkməsi artıq ciddi qəbul edilməli siqnaldır. Qanunsuzluq, haqsızlıq və ədalətsizlik mənbəyi olan Azərbaycan tipli idarəetmə sisteminə malik dövlətlər İŞİD və bu qəbildən olan təşkilatlar üçün münbit şəraitdir. Bu isə təhlükənin miqyasını bir qədər də böyüdür.**

Bu fonda ölkənin siyasi müxalifəti və vətəndaş cəmiyyəti fəalları üzərində "məhkəmələr" quran və mən də daxil olmaqla, yerdə qalanları həbslə təhdid edən iqtidar başbilənlərinə isə bir tövsiyəm var: birdəfəlik hamını şərləyib atın içəri, bizlər onsuz da sizin üçün opponent deyilik artıq. Belə davam etsə, bu işi ən yaxşı bacaran elə İŞİD olacaq".

Ərəstun Oruclu ilə əlaqə saxlayıb onu kimin təhdid etdiyi, həbs təhlükəsinin olub-olmadığını xəbər aldıq. Ə.Oruclu qeyd etdi ki, belə bir təhlükə, hədə var. Sadəcə, bu gün geniş açıqlama vermək istəmir: "Mənim bu barədə yaxın günlərdə çox tutarlı, konkret açıqlamam olacaq. Ona görə də hələlik danışmaq istəmirəm".

**❑ E.SEYİDAĞA**

AQROLİZİNQ
"AQROLİZİNQ"
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# Siyavuş Novruzovdan alman şirkəti barədə sensasion açıqlama

## "Almaniya nümayəndələri dedi ki, "Simens" firmasına şərait yaradın, biz də sizə səs verək"

**"Təsəvvür edin ki, Almaniya Bundestaqında Azərbaycanın məsələsi qoyulur. Axı sən BMT deyilsən. Hətta BMT-nin özünün qətnamələri yerinə yetirilmir. Dağlıq Qarabağla bağlı 4 qətnamə qəbul edilib, icra olunmur. Yaxud heç BMT-nin qətnaməsi olmadan ölkələrə girib darmadağın edirlər, NATO qüvvələri gəlib orda oturur və s."**

**YAP-ın icra katibi Siyavuş Novruzov** bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirib. Azərbaycanla Avropa strukturlarının bəzisi, o cümlədən Bakı ilə Berlin arasındakı vaxtaşırı müşahidə olunan soyuq münasibətlər barədə danışan hakim partiya təmsilçisi deyib ki, Azərbaycan müstəqil siyasət kursuna sadiqdir. O əlavə edib ki, Almaniya Bundestaqı Almaniyanın daxili ilə bağlı hansısa qərar verə bilər: "Hesab edin ki, bu gün Azərbaycan parlamenti burda oturub Moldova, ya Belarusla bağlı qərar qəbul edir, bunun o ölkələrdə hansı hüquqi nəticəsi ola bilər? Həmin Avropa ölkələri ilə bizim əməkdaşlığımız davam edir, onların Azərbaycanda müəyyən təşkilatları, şirkətləri fəaliyyət göstərir".




**S.Novruzov bu barədə danışarkən maraqlı bir faktı da xatırladıb:** "Mən şahidəm ki, Bolqarıstanda - Sofiyada iki dəfə bizim NATO Parlament Assambleyasının assosiativ üzvü olmağımıza səs vermədilər. Bir neçə ölkə buna qarşı çıxırdı, biri də Almaniya. Sual olundu ki, niyə bizə səs vermirsiniz? Cavab verdilər ki, bizim "Simens" firmasına imkan vermirsiniz ki, gəlib Azərbaycanda işləsin. Ona şərait yaradın, biz də sizə səs verək. Yəni belə hallar da var. O zaman bir il imkan vermədilər ki, biz assosiativ üzv kimi quruma daxil olaq".

**❑ Cavid TURAN**

# Naməlum offşor şirkət "Aqrolizinq"lə on milyonlarla dollarlıq müqavilə bağladı

**"Aqrolizinq" ASC "Solo Trade Corporation LTD" şirkəti ilə 92 min ton mineral gübrə almaq barədə saziş imzalayıb. "60 min ton azot gübrəsinin alınma qiyməti 23 mln. 514 min 876 manatdır" - deyə Satınalmalar üzrə Dövlət Agentliyi məlumat verir.**

"Aqrolizinq" ASC-dən "Turan"a bildiriblər ki, ilkin olaraq 92 min ton müxtəlif gübrələr almaq planlaşdırılırdı. Amma dövlət büdcəsindən maliyyələşmə gecikdiyi üçün tender iki hissəyə bölündü. İkinci hissə üzrə (başqa mineral gübrələr) SDA-nın icazəsi ilə həmin şirkətlə 17 milyon 535,5 min dollar məbləğində müqavilə bağlanılıb.

"Solo Trade Corporation LTD" offşor şirkətidir və haqqında informasiya bazası yoxdur.

Hökumət fermerlərə verilən mineral gübrələrin qiymətinin 70%-ni dövlət büdcəsindən ödəyir. Bir neçə özəl şirkətin xətti ilə də gübrə alınır.

Gömrük Komitəsinin məlumatına görə, 2014-cü ildə Azərbaycana 75 milyon dollar dəyərində 153,6 min ton müxtlif gübrələr gətirilib.



## Tomas müəllimin motosikleti

Zamin HACI
zaminhaci@gmail.com

"Söhbətin lap şirin vaxtı idi, sol səmtdən, döngədən bir şəxs çıxıb yeyin yeriyib kəndlilərin yanına gəlib, salam verib üzünü tutdu Məmmədhəsən əmiyə: Məmmədhəsən əmi, tez oğlanı göndər, pəyədən eşşəyi çıxarsın, minəcəyəm şəhərə, nəçərnik istiyibdir"

**(Mirzə Cəlil, "Danabaş kəndinin əhvalatları")**

**Tomas Qolts adında bir hiyləgər ingilis var. Qədim nağıllarımızda padşahın qızını tovlayıb alan keçəllərə bənzər unikal bir görkəmin yiyəsidir. Neft sunamisi Abşeronu basan vaxtlarda o da üzə çıxmışdı, cürbəcür əndrəbadi proyektlər cızıb yapistlərdən pullar qopardırdı. Halal xoşu olsun, nə deyə bilərik. Malını yeməyənin malını yeyərlər. Neft pulları belənçik cürbəcür "tomasların" və "fantomasların" cibinə axanda Azərbaycan xalqı fil qulağında yatırdı.**

Həmin Tomas müəllimin bir proyekti belə idi ki, Bakıda yekə neft çəlləyini 2-ci dünya savaşındakı alman faşistlərinin motosikletinin tam bənzəri olan bir motosiklетə yükləyib qarlı dağlar aşaraq, çox ellər dolaşaraq Ceyhan limanına aparmışdı. Bununla guya neftimiz kəmərdən qabaq dünya bazarına çıxmışdı. İkinci layihəsi də bunun bənzəri idi, bu dəfə Tomas müəllim qaz balonunda "Şahdəniz" qazını Ərzurum şəhərinə qədər aparmışdı.

Yenə yazıram, əslində belə lotular neft şirəsinin başında həmişə olmuşdur, heç maraqlı da deyildi, sadəcə, bir-iki gün qabaq kədərli xəbər oxudum: Tomas müəllim həmin motosikleti ARDNŞ-in qayırdığı neft-qaz muzeyimizə təhvil vermişdir. Xəbəri oxuyanda hardansa rəhmətlik Baba Pünhan yadıma düşdü, elə bildim yenə gözəl şeirlərindən birini oxuyur: "Müxalifət mitinqə şor-çörəklə, Amma iqtidar kotletnən gedir. Bəşər gələn əsrə raketnən gedir, Bizimkilər motoskletnən gedir".

Bəli, ey gidi dünya, ey badi-giriftar, ey dadi-bidad *(Alim Qasımov demişkən)*, əgər Tomas Qolts öz matah motosikletini muzeyimizə veribsə, demək, neft-qaz sənayemizin çöküşü şübhəsizdir. Əks halda, o cür çörəkli maşını niyə verəsən? Bəd ayaqda Saatlı bazarında qarpız daşımaq olardı. Amma gəmi batanda onu birinci motosikletlilər tərk edir. Dalıyca durba çəkənlər, tanker sürənlər-zad gedəcəkdir, qarı nənə oyanıb görəcəkdir yenə həmin köhnə, dibi yırtıq təknənin yanında oturubdur. Bizə qalan elə Tomas müəllimin motosikleti olacaqdır. Rövnəq müəllimə deyin, motosikletin lyülkasından bərk-bərk yapışsın.

Analoqu olmayan iqtisadi böhranın başqa əlaməti baş nazirin birinci, ikinci, üçüncü müavini, bütün faciə, daşqın, zəlzələ komissiyalarının sədri, hər cür hətərən-pətərən sözlər üzrə Nazirlər Kabinetində məsul işçi Abid Şərifovun dilindən səslənmişdir. Abid müəllim deyir ki, millətimiz çox yatır, gərək hamı səhər saat 8-in yarısında iş yerində olsun. Guya belə olsa, iqtisadi səmərə artarmış.

Uca millətimiz, necə deyərlər, acından günorta durur, bunların kefinə bax... Ancaq niyə də olmasın? Abid müəllimlə tam eyni gündə Şimali Koreya Yapokratik Respublikasının ümummilli liderinin siyasi kursunun layiqli davamçısı Kim Conq İn *(ya da Conq Un - sizin üçün nə fərqi var?)* fərman imzalamışdır: hər bir uca koreyalı səhər saat 5-də işə getməlidir! Kommunizm quruculuğu xalqı daim ayıq-sayıq olmağa səsləyir. Bizim koreyalılardan nəyimiz artıqdır və ya əskikdir? Lazım gəlsə biz iş vaxtını beşin yarısından edərik. Hətta analoqu olmayan iqtisadiyyat tələb edirsə heç yatmayaq. Guya yatanda fərli yuxu görürük...

Məsələn, mən keçən həftə yuxuda gördüm ki, Leninqradda *(məhz Leninqrad idi, yuxumda şəhərin adı hələ Sankt-Peterburq olmamışdı)* Hadı Rəcəbli ilə əyləşib araq içirik. Hadı müəllim təkidlə çayda çimmək istədiyini deyir, mən isə mane olmağa çalışıram, ancaq bacarmıram. Hadı müəllim Neva çayına baş vurub elə ordaca batdı, mən də qorxumdan yuxudan oyandım, çünki fikirləşirdim Oqtay Əsədova nə cavab verəcəyəm.

## İŞİD və PKK-nın iki qardaş ölkəni "ürəyindən vurmaq" niyyəti




# Bakı nefti terrorçuların hədəfində

### İrandan Türkiyəyə gələn qaz xətti partladıldı; terror hücumlarının hədəfində Bakı-Tiflis-Ceyhandır; İŞİD hələ yanvar ayında Azərbaycanın neft buruqlarını vuracağı ilə təhdid etmişdi; Bakı-Supsa qismən Rusiya ordusunun nəzarətinə keçdikdən sonra BTC-yə həm İŞİD-in, həm PKK-nın, həm Rusiyanın təhdidlərindən doğan təhlükə var; PKK azərbaycanlı iş adamının TIR-larını yandırdı

**Türkiyə və İran arasındakı təbii qaz boru xəttinin Türkiyə hissəsində güclü partlayış törədilib. ANS-in məlumatına görə, bu barədə Türkiyənin enerji və sərvətlər naziri Taner Yıldız açıqlama verib. Nazir bildirib ki, boru xəttinin Türkiyənin Ağrı vilayətindən keçən hissəsi partladılıb.**

Partlayış iyulun 27-də axşam törədilib. Partlayışdan sonra yanğın baş verib. Lakin qısa müddət ərzində alovun qarşısını almaq mümkün olub. Nazir deyib ki, təmir işləri başa çatandan sonra İrandan Türkiyəyə təbii qazın nəqli bərpa ediləcək. "Bir neçə gün əvvəl Cizre-Silopi arasındakı elektrik xəttində, daha sonra Türkiyə və İran arasındakı təbii qaz boru xəttində təxribatın həyata keçirilməsi sadəcə dövlət və hökumətimizə qarşı deyil, həm də o bölgədəki vətəndaşlarımıza qarşıdır", deyə nazir bildirib.

Son günlər PKK və İŞİD terrorçuları Türkiyəyə qarşı elan olunmamış müharibəyə başlayıblar. PKK terrorçuları ölkədə bir sıra terror hücumları həyata keçirib, hüquq-mühafizə və təhlükəsizlik qüvvələrinin əməkdaşlarını öldürüb. Bir neçə gün əvvəl isə Cizre-Silopi arasındakı elektrik xəttində də təxribat törətmişdilər.

Məlum olduğu kimi, Türkiyədən Azərbaycanın Bakı-Tiflis-Ceyhan (BTC) neft kəməri və Bakı-Tiflis-Ərzurum qaz boru xətti keçir. PKK terrorçularının son günlər təbii qaz boru xəttinə, elektrik xətlərinə etdiyi hücumlar Azərbaycanın bu ölkədən keçən neft kəmərlərinin təhlükəsizliyi məsələlərini də gündəmə gətirir.

İŞİD terror təşkilatı bu ilin yanvarında bəyanat verərək Azərbaycanın neft yataqlarını ələ keçirmək niyyətlərini açıqlamışdı. İŞİD-in "daxili işlər naziri" kimi təqdim edilən Abdul Vahid Xudayar Əhmədin bəyanatda **"biz ən qiymətli İslam ölkələrindən biri olan Azərbaycanı, Bakını azad etməliyik. Şübhəsiz ki, Azərbaycan və onun təbii resurslarının İslam dünyasındakı yeri bərpa ediləcək"** - deyə bəyanatda deyilirdi.

İŞİD döyüşçülərinin regiondakı bütün neft yataqlarını, neft kəmərlərini, o cümlədən BTC-ni hədəf alacaqları barədə bəyanatları isə narahatlıqları bir qədər də artırıb. Hazırda Türkiyə həm İŞİD, həm də PKK ilə savaşa girdiyindən neft və qaz kəmərlərində terror aktlarını önləmək üçün çətinliklə üzləşir. Üstəlik, Rusiya da son vaxtlar Qərb ölkələrinin, o cümlədən Avropanın Moskvanın enerji asılılığını azaltmaq üçün inşa edilən alternativ neft və qaz kəmərlərinə ciddi təhlükə yaratmağa başlayıb. Rusiya ordusu Gürcüstandan keçən Bakı-Supsa neft kəmərinin Cənubi Osetiya hissəsinə faktiki nəzarət etməyə başlayıb. Ruslar kəmərin bir hissəsini nəzarət altına almaqla Qərbə nümayiş etdirmək istəyir ki, onun Qafqazdakı strateji layihələrinin təhlükəsizliyinə təminat yoxdur. Azərbaycan tərəfi bu məsələdə konkret mövqe ortaya qoymasa da, verilən açıqlamalardan o anlaşılırdı ki, əgər Bakı-Supsa hər hansı ekstremal vəziyyətdə dayanarsa, bütün ixrac neftini BTC-yə yönəltmək də mümkündür. Çünki BTC-nin nəql gücü hazırda buna imkan verir. İndi isə BTC-yə həm İŞİD-in, həm PKK-nın, həm Rusiyanın təhdidlərindən doğan real təhlükə var.

Azərbaycan Xüsusi Dövlət Mühafizə Xidməti 2005-ci ildə BTC-nin ölkəmizdən keçən hissəsinin təhlükəsizliyini təmin etmək üçün 850 nəfərdən ibarət struktur formalaşdırıb. Terror riskinin yüksək olduğu Türkiyə ərazisində isə BTC-nin kifayət qədər güclü mühafizə olunmadığı barədə qardaş ölkə mətbuatında da dəfələrlə yazılıb. Kəmərin Türkiyə ərazisində təhlükəsizliyinin təmin olunmasına yerli hökumət, həbelə "Botaş" şirkəti cavabdehdir. Uzun müddət kəmərin Türkiyə hissəsini işlədən "Botaş" təhlükəsizlik xərclərini ödəməkdən hətta imtina da edib. Bir neçə il əvvəl isə BTC-nin Türkiyə ərazisindən keçən hissəsində, nasos stansiyalarından birində partlayış törədilib və nəticədə kəmər 3 həftəyə yaxın bağlı qalıb. Həmin hadisəyə görə məsuliyyəti PKK terror təşkilatı üzərinə götürmüşdü. Lakin Türkiyə hökuməti israr etdi ki, hadisə terror aktı deyil və nasos stansiyasında texniki nasazlıq səbəbindən baş verib. Qeyd edək ki, BTC-nin uzunluğu 1773 kilometrdir. Kəmərin Azərbaycandan keçən hissəsinin uzunluğu 449 km, Gürcüstandan keçən hissəsinin uzunluğu 235 km, Türkiyədən keçən hissəsi isə 1089 kilometrdir.

Aydındır ki, indi Türkiyəyə qarşı birləşən terror qrupları və onların havadarları ölkəyə ağır zərbə vurmaq üçün həm də onun "arteriyaları" hesab olunan enerji kəmərlərini daha israrla hədəf alacaqlar.

Türkiyənin PKK-ya qarşı apardığı mübarizə qardaş ölkə daxilində terror olaylarının artması ilə paralel müşahidə edilməkdədir. Maraqlıdır, Türkiyədə PKK-nın hərəkətə keçməsi fonunda Azərbaycanda da PKK-nın fəallaşması mümkündürmü?

**Sabiq MTN zabiti Sülhəddin Əkbər belə bir ehtimalın gözlənilən olduğunu vurğulayıb:** "Azərbaycan PKK üçün maliyyə qaynaqlarının olduğu və tranzit dövlət kimi önəmlidir. Türkiyə ilə terror təşkilatı arasındakı mübarizə PKK-nın maliyyə xərclərini artıracaq. Bu baxımdan, yuxarıda qeyd etdiyim sahələrlə bağlı PKK-nın Azərbaycanda da fəallığı arta bilər. Belə bir ehtimal mövcuddur" - deyə, o moderator.az saytına açıqlamasında deyib.

Sonda qeyd edək ki, etnik azərbaycanlıların kompakt yaşadıqları Türkiyənin İqdır-Qars bölgəsində naməlum şəxslər tərəfindən bir neçə TIR və digər yük maşını saxlanılaraq onlara od vurulub.

Sözügedən yanğın hadisələrinin bölgədə gizlənən PKK və ya İŞİD terrorçuları tərəfindən törədildiyi ehtimal edilir.

Son günlər isə təkcə İqdır-Qars yolunda 13 nəqliyyat vasitəsi, o cümlədən 8 TIR maşınına hücum edilib. Həmin avtomobillər naməlum şəxslər tərəfindən tamamilə yandırılaraq yararsız hala salınıb. Yandırılmış TIR maşınlarından biri İqdırın "Mutlular" şirkətinə məxsus olub. Şirkətə məxsus TIR yüklənmək üçün İstanbula gedirmiş.

**Şirkətin sahibi etnik azərbaycanlı İsmail Akandır. Onun sözlərinə görə, PKK-nın hücumları İqdıra məxsus 3 giriş-çıxışda baş verib:** "Həmin istiqamətlərin hamısında bir gün fasilə ilə maşınlar yandırılıb. Bununla PKK Türkiyə dövlətinə tələblərini qəbul etdirməyə çalışır".

Türkiyə mediası isə yanğın hadisələrinin PKK və İŞİD-ə bağlı qüvvələr tərəfindən törədildiyini iddia edir. Hələlik Türkiyə hökuməti də 13 maşının yandırılmasının səbəbləri ilə bağlı rəsmi açıqlama verməyib.

❑ **"Yeni Müsavat"**

# Rusiyanın yeni "Milyarderlər ittifaqı" layihəsi

## Sabiq MTN "şefi"nin və Rusiya generalının Avrasiya hərəkatını elan etməsinin pərdəarxası

**Azərbaycanın keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranov və Rusiyanın Ədliyyə Nazirliyinin keçmiş əməkdaşı, ikinci dərəcəli dövlət müşaviri İlqar Qasımov Azərbaycanın bir qrup ictimai və siyasi xadimləri ilə birlikdə Azərbaycanda Avrasiya hərəkatı yaradır.**


İlqar Qasımov


Nəriman İmranov

Bu barədə virtualaz.org saytına təşəbbüs qrupunun üzvlərindən biri məlumat verib.

Nəriman İmranovun və İlqar Qasımovun əsas məqsədi Azərbaycanda Putinin Avrasiya İttifaqı ideyasını populyarlaşdırmaqdır. Bugünlərdə təşəbbüs qrupu hərəkatın rəsmi qeydiyyatı üçün Ədliyyə Nazirliyinə müraciət edib. "Dünyada baş verən mürəkkəb iqtisadi-siyasi proseslər və yeni geosiyasi çağırışlar avrasiyaçılıq ideyasının aktuallaşmasını təbii olaraq ön plana çıxarır, onun müvafiq milli hərəkat formasında təşkilati-praktiki həllini israrla tələb edir" deyə, təşəbbüs qrupunun bəyanatında deyilir.

Qeyd edək ki, sovet KQB-sinin zabiti Nəriman İmranov 1993-cü ildə Milli Təhlükəsizlik Nazirliyinə başçılıq edib və 1994-cü ilin payızınadək nazir olub. MTN-in təcridxanasından Rəhim Qazıyevin, Ələkrəm Hümmətovun, Arif Paşayevin və Baba Nəzərlinin qaçırılmasından sonra Nəriman İmranov dövlətə xəyanətdə ittiham edilib. Azərbaycan Ali Məhkəməsinin Kollegiyasının qərarı ilə 1996-cı il, fevralın 12-də ölüm cəzasına məhkum edilib.

Azərbaycanda ölüm cəzası ləğv edildən sonra N.İmranov Qobustan həbsxanasında ömürlük cəza çəkib. 2002-ci ildə Heydər Əliyevin fərmanı ilə əfv edilib.

2002-ci ildən Nəriman İmranov ictimai-siyasi fəaliyyətlə məşğul deyildi. Onun gözlənilmədən Rusiya Ədliyyə Nazirliyinin generalı ilə siyasi səhnədə peyda olması böyük marağa səbəb olub.

Rusiyanın ədliyyə generalı olan "Azərbaycan yolu" Hərəkatının sədri İlqar Qasımovun adı vaxtaşırı qalmaqallarla gündəmə gəlib. Sabiq MTN şefinin isə Azərbaycanda yaşadığı bildirilir. Bu mənada N.İmranovun Azərbaycanda yaşadığı halda Azərbaycan hakimiyyətinin iradəsinə zidd hansısa addımlara getməsi də şübhəli görünür.

Xatırladaq ki, son seçkilər ərəfəsində baş nazirin keçmiş birinci müavini Abbas Abbasovun və Milli Şuranın sədri Rüstəm İbrahimbəyovun rəhbərliyi ilə Rusiyada yaşayan azərbaycanlı milyarderlərdən ibarət "Milyarderlər ittifaqı" yaradılmışdı. Təşkilatın məqsədi Azərbaycan hakimiyyətinə təzyiq göstərərək xarici siyasətdə mühüm dəyişikliklərə məcbur etmək idi. Amma bugünlərdə A.Abbasov təşkilatın fəaliyyətini dayandırdığını bəyan etdi və hesab edilirdi ki, burada Bakı ilə Moskva arasındakı anlaşmaların da rolu olub. Eyni zamanda A.Abbasovun qardaşının həbsi, digər ailə üzvlərinə qarşı təzyiqlərin də bu təşkilatın sonuna rəvac verdiyi iddia olunur.

Prezident seçkiləri ərəfəsində "Milyarderlər ittifaqı" Azərbaycanın daxilində kifayət qədər narahatlıqlar yaratmağa müvəffəq olmuşdu. Odur ki, Azərbaycan hakimiyyəti bu projenin durdurulması üçün xeyli əziyyət çəkməli oldu.



**İlham İsmayıl:** "Avrasiya ideyasını aktuallaşdırmaq yaşının bu vaxtında Nəriman müəllimin, ya İlqar Qasımovun heç də öz ideyası ola bilməz"

İndi də parlament seçkiləri ərəfəsində bənzər layihə işə salınıb. Bu mənada hesab olunur ki, Kremlin Azərbaycanı Avrasiya İttifaqına qoşmaq üçün böyük səylər göstərdiyi zamanda adları Rusiya dairələrinə bağlı olan şəxslərin təşəbbüs qrupu yaratması təsadüfi görünmür. Təşkilatçılar açıq şəkildə deyirlər ki, Azərbaycanın Avrasiya Birliyində yer almasına səy göstərəcəklər. Odur ki, ortaya sual çıxır: bu, Kremlin növbəti oyunu ola bilərmi?

Yeri gəlmişkən, bir müddət öncə Putin Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında yer alacağının anonsunu vermişdi. Həmçinin Bakının Gömrük İttifaqına qoşulacağı halında Qarabağ məsələsində tənzimlənməyə start veriləcəyi barədə rus ekspertlərindən açıqlamalar silsiləli qaydada eşidilməyə başladı. Belə bir məqamda ABŞ və Avropa İttifaqı rəsmilərinin Bakıya səfəri, münasibətlərdə mülayimləşmənin müşahidə edilməsi Rusiyanı razı sala bilməzdi. Sabiq MTN-çilərin hərəkətə keçməsi bu mənada təsadüf sayılmır.

**Sabiq milli təhlükəsizlik xidməti zabiti İlham İsmayıl "Yeni Müsavat"a dedi ki, bu kimi addımların atılması heç vaxt səbəbsiz olmur:** "Həbsdən çıxandan uzun müddət sonra keçmiş nazirin və İlqar Qasımovun qəfildən belə bir addımı atması təbii ki, arxada bir qüvvənin olmasından xəbər verir. İkincisi də birdən-birə hər şeyi unutmuş adamların yenidən indiki dövrdə, yaşlarının bu vaxtında siyasi səhnəyə qayıtması, sadəcə olaraq, öz təşəbbüsləri kimi dəyərləndirilə bilməz. Bu təşəbbüsün arxasında elə deyildiyi kimi, Rusiya dayana bilər". **İ.İsmayıl güman edir ki, buna rəvac verən başqa bir məsələ də rəsmi Bakı ilə Avropa arasındakı soyuq münasibətlərdir:** "Yəni bunu son dövrdə Azərbaycan rəsmilərinin Avropaya qarşı olan qəzəbli, tənqidi münasibətinin nəticəsi kimi dəyərləndirmək lazımdır. Həm Rusiya, həm Rusiya ətrafında dayanan, avrasiyaçılıq ideyası ilə "silahlanmış" qüvvələr fürsətdən istifadə edirlər, bu ideyanın aktuallaşması səbəbi ilə önə çıxırlar. Azərbaycan rəsmilərinin Avropaya ünvanlı tənqidi münasibətlərinin tez-tez ortaya çıxması da buna rəvac verən məsələlərdən biridir. Hər halda, son dövrdə, Avropa İttifaqının rəsmisi Tusk da gəlib-gedəndən sonra bu məsələyə münasibətlərdə yumşalmanın, yaxınlaşmanın hiss olunmasından sonra, görünür, "bəzi qüvvələri işə salmağın vaxtı çatıb" deyiblər. Qrupun bəyanatına baxıram, ifadəyə fikir verin: "Müvafiq milli hərəkat formasında təşkilati-praktiki həllini israrla tələb edir". Əgər bu avrasiyaçılıq Azərbaycanı təzədən Rusiyanın qoynuna atmaqdırsa, burada nə "müvafiq milli hərəkat formasından" söhbət gedir?" Ekspert deyir ki, Azərbaycan hökuməti bu təşəbbüsə loyal yanaşmamalıdır.

**İ.İsmayıl Nəriman İmranovun Azərbaycanda yaşadığını qeyd etdi və bildirdi ki, vaxtilə onun rəhbərlik etdiyi nazirlikdə işləyib:** "O, mənim nazirim olub, bir neçə dəfə Dağlıq Qarabağda ezamiyyətdə olmuşuq. Lakin o, heç vaxt anti-Azərbaycan mövqeyində olmayıb. Bu bəyanatda da hiss olunur ki, guya orada anti-Azərbaycan mövqeyi yoxdur. Amma hamı bilir ki, yeni geosiyasi çağırış adı altında da Avrasiya ideyasını aktuallaşdırmaq yaşının bu vaxtında Nəriman müəllimin, ya İlqar Qasımovun heç də öz ideyası ola bilməz". **Ekspert qeyd etdi ki, Azərbaycanda bu ideyaya daha kimlərin dəstək verməsi bir azdan sonra bəlli olacaq:** "Ümumiyyətlə, burada Azərbaycanın Rusiyanın təsiri altında olmasını istəyən siyasi qüvvələr, yaxud qeyri-siyasi adamlar çoxdur. Azərbaycanda "Beşinci kolon" mövcuddur. Hər halda, bu, ciddi məsələdir. Düzdür, bu, Azərbaycanda özünün geniş ətrafını tapmayacaq. Amma bunu nəzarətsiz də buraxmaq olmaz".

❑ **Cavid TURAN**

---

# Eyni vaxtda bir neçə cəbhədə....


**Hüseynbala SƏLİMOV**

## Son günlərdə Azərbaycanla Ermənistan arasında böyük gərginlik yaşansa da Türkiyədə baş verən olaylar da diqqətdən yayınmadı...

**Əvvəlcə terror hadisəsi hamını sarsıtdı. Terrordan danışanda mənim yadıma həmişə mərhum caz bəstəkarı Rafiq Babayev düşür. Bir neçə il bundan əvvəl o, radioya tələsirdi. Maşını işə düşmədi. Tərslikdən taksi də tuta bilmədi. Qərara aldı ki, metro ilə getsin. Amma radioya gedib çata bilmədi, çünki həmin gün metroda terror aksiyası baş verdi və ölüm bu gözəl bəstəkarı bizim əlimizdən aldı...**

Bütün insanların ölümü kədərlidir. Amma çox az insanlar olur ki, onların arxasınca "Heyf! Yaşasaydı hələ nə qədər gözəl əsərlər yarada bilərdi!" deyə bilirik... Rafiq Babayev də belə nadir insanlardan idi...

İndi mən bizim estradaya baxıram. Dərhal hiss olunur ki, musiqi ideoloqu yoxdur - vaxtsız ölüm Vaqif Mustafazadəni tez apardı, onun ardıca da gözəl caz bəstəkarı Rafiq Babayev həyata əlvida dedi...

Qərəz, qayıdaq mətləbə. Terrordan sonra Türkiyə ilk dəfə olaraq İŞİD silahlılarına və kürd separatçılarına qarşı müharibəyə başladı. Hətta ABŞ-a bu neçə ildə ilk dəfə olaraq öz ərazisindəki hərbi bazadan İŞİD silahlılarına qarşı istifadə etməyə icazə verdi...

İndi Türkiyədə bu hadisəni müxtəlif cür yozurlar. Ona görə ki, hakim partiya 45 gün ərzində koalisyon hökumət formalaşdırmalıdır. Əgər bu cəhdlər baş tutmasa onda ölkə təkrar seçkilərə gedəcək...

Elə bu səbəbdən bir çoxu indiki hadisələri R.T.Ərdoğanın seçkilərə hazırlıq cəhdi kimi də yozurlar. Amma müharibə ikibaşlı çubuq kimidir. Müharibə onu aparan hakimiyyətə uğur da gətirə bilər, əksinə də baş verə bilər...

Düzünü desək, Ərdoğan Türkiyənin müharibəyə cəlb olunmasının həmişə əleyhinə olub. Ona görə də onun "xal" qazanmaq istədiyini deyənlər bir o qədər haqlı deyillər. Ərdoğan müharibə istəmirdi. Hətta Suriya prezidenti onu İŞİD-lə əlbir olmaqda ittiham edirdi...

Amma indi Türkiyə İŞİD-ə qarşı əməliyyatlara cəlb olunub. Güman edirik ki, bu işdə ABŞ və NATO onun yanında olacaq... Əslində onlar Türkiyənin bu işə cəlb olunmasını çoxdan istəyirdi. Ona görə də demək olar ki, onlar müəyyən mənada öz istəklərinə çatdılar...

İndi qalır Ərdoğanın bu prosesi necə başa vuracağı... Ərdoğan seçkinin nəticələrindən təbii ki, razı deyildi. Koalisyon hökumət formalaşdırmaq üçün nəzərdə tutulan partiyalar isə ilk növbədə onu hədəfə götürür və şərt kimi prezidentin səlahiyyətlərinin azaldılmasını tələb edirlər...

Seçki həm də Ərdoğanın böyük planlarını heç etmişdi. Ona görə də hakim partiyanın revanş götürmək istəməsi elə də təəccüblü görünməz...

Amma təkrar seçki Ərdoğanın xeyrinə olacaqmı? Hərbi əməliyyatlar onun şanslarını artıracaqmı?...

Bax, məsələ də elə bundadır. Bunlar elə əməliyyatlardır ki, onlar Türkiyəyə hansısa üstün mövqe vəd etmir, kürd probleminin tamam həllini vəd etmir və sadəcə, olsa-olsa, "əzələ" nümayişi kimi təsir bağışlaya bilər...

Düzdür, Ərdoğan həmişə Türkiyənin təsir dairəsini genişləndirməyə, bir növ Osmanlı imperiyası dövründəki mövqelərini qaytarmağa cəhd edib. Amma gəl, ərəb dünyası bundan elə də məmnun deyil, çünki onlar özləri də "xilafət" röyalarına o qədər də etinasız deyillər...

İndi dünya siyasəti çox qarışıqdır. Türkiyəyə hansı rolun ayrıldığı o qədər də aydın deyil. Ən azı ona görə ki, rollar bölüşdürülməyib. 21-ci əsrin geopolitika kitabı hələ açıqdır, onun ilk səhifəsi belə yazılmayıb. Bir neçə Asiya ölkəsi sübut edib ki, Avropadan kənarda da inkişaf mümkündür və bunu əməli olaraq isbat etmək mümkündür...

Avropa Birliyinə buraxılmayan Türkiyənin də qarşısında bu vəzifə dayanır.

Əslində Türkiyənin siyasi elitası öncə bunu düşünməlidir. Bizə elə gəlir ki, bunlar cari siyasi konyunkturadan daha yüksək məsələdir...

Qərəz, dünya siyasəti qaynayır. Bu oyunda hələ də həlledici söz deyilməyib. Rusiya cabalayır, ABŞ vurnuxur. Türkiyə də bu keşməkeşli oyundan kənarda qala bilməz. Ölkələr belə böyük proseslərə neytral qala bilməzlər...

Ən azı ona görə ki, ideal neytrallıq mümkün deyil. Həm də hamı özü üçün rol qoparmağa çalışır bu dünyada, çünki heç də hamıya rol verilmir...

Ona görə də indiki proseslər bir hakimiyyətin qayğılarından daha üstün və daha dərin məna kəsb edir...

Demirik ki, Türkiyə bu prosesdən çox udacaq. Amma dövlət gərək arabir gücünü də göstərməyi bacarsın...

# Yunusların məhkəməsində şahidlər dindirildi

## Leyla Yunus vəkilə: “Bu kloun mövcud olmayan cəmiyyəti təmsil edə bilməz”



**İyulun 28-də Bakı Ağır Cinayətlər Məhkəməsində Əfqan Hacıyevin sədrliyi ilə hüquq müdafiəçisi Leyla Yunus və onun həyat yoldaşı Arif Yunusun işi üzrə məhkəmə iclası davam edib. “Turan” xəbər verir ki, əvvəlki iclaslarda olduğu kimi, zal əvvəlcədən xidməti qapıdan içəriyə buraxılmış şəxslərlə doldurulub.**

Zala yalnız iki jurnalist, Amerika səfirliyinin əməkdaşı və tərcməçisi və beynəlxalq hüquq müdafiə təşkilatlarından birinin nümayəndəsi öz tərcüməçisi ilə daxil ola bilib.

Zala daxil ola bilməyənlər etiraz etdikdə isə polis əməkdaşları onları məhkəmə binasından uzaqlaşdırıb.

Proses şahid ifadələri ilə davam edib.

“Ön Qafqazda Qadınlar Sülh və Demokratiya uğrunda” Cəmiyyətinin həmtəsisçisi Adilə Manafova deyib ki, Leyla Yunus Qarabağ münaqişəsinin həlli üzrə sülhməramlı səylərdə iştirak edirdi. Onun işinin nədən ibarət olduğunu soruşduqda, A.Manafova deyib ki, L.Yunus arqumentlərlə, konkret faktlara söykənərək, Qarabağ münaqişəsinin səbəbləri, Azərbaycan ərazilərinin işğalı haqqında məlumat verirdi. “Ermənilər onun arqumentlərinin qarşısına heç nə çıxara bilmirdilər”, deyə şahid bildirib.

Pokuror Fərid Nağıyevin şahidə mane olması vəkil Elçin Qəmbərovun narazılığına səbənb olub. Vəkil deyib ki, bundan əvvəlki prosesdə məhkəmədə yalnız KİV-dən eşitdiyinə əsaslanaraq, L.Yunusun Ermənistan xüsusi xidmətləri ilə əməkdaşlığı haqqında ifadə verən şahid Təhmasib Novruzovun danışmasına imkan verilib.

Vəkil E.Qəmbərovun R.Səfərəliyevanın təşkilatda nə ilə məşğul olduğu barədə sualına cavabda şahid deyib ki, o, karqüzarlıqla məşğul idi. L.Yunus isə təşkilatın rəhbəri deyildi.

L.Yunus bildirib ki, özünü zərərçəkmiş tərəfin - “Ön Qafqazda Qadınlar Sülh və Demokratiya Uğrunda” Cəmiyyətinin vəkili kimi təqdim edən Şöhrət Allahmanov “növbətçi vəkildir” və deməli, zərərçəkmişin nümayəndəsi ola bilməz. O, üzünü çevirərək Allahmanova deyib: **“Bu kloun mövcud olmayan zərərçəkmişi - ləğv edilmiş cəmiyyəti təmsil edə bilməz”.**

Hakim L.Yunusu təhqirə keçməməyə çağırıb.

Hakim A. Manafovadan QHT-nin buraxılması haqqında protokol olub-olmadığını soruşub. Buna cavabda o deyib ki, protokol olub, ləğv prosesi isə R.Səfərəliyevaya tapşırılıb.

Şahid Zemfira İsmayılova bildirib ki, L.Yunusu hələ 1988-ci ildən QHT-dəki fəaliyyətindən tanıyır. Z.İsmayılova deyib ki, L.Yunus bütün bu illər ərzində bir çox insana kömək edib.

Eyni zamanda şahid bildirib ki, “Ön Qafqazda Qadınlar Sülh və Demokratiya Uğrunda” Cəmiyyətinin həmtəsisçisi olmayıb. Amma o, təşkilatın buraxılması zamanı imza atıb. Müdafiə tərəfin İsmayılovanın L.Yunusa qarşı iradı olub-olmadığı barədə sualına o, “yox” cabab verib.

Z.İsmayılova qeyd edib ki, vaxtilə L.Yunus Qarabağ münaqişəsi haqqında məlumatlandırmaq üçün çox şey edib, Xocalı faciəsindən sonra filarmoniyada tədbir təşkil edib. O həmçinin bildirib ki, “Ön Qafqazda Qadınlar Sülh və Demokratiya Uğrunda” Cəmiyyətinin ləğvi zamanı L.Yunus tərəfindən QHT-yə ziyan vurulması məsələsi müzakirə olunmayıb.

Daha sonra həbs edilmiş jurnalist Rauf Mirqədirovun keçmiş həyat yoldaşı Zərifə Hacıyeva çağırılıb.

Müdafiə tərəfi şahidin dindirilməsinə etiraz edib, belə ki, onun ifadələrinin bu cinayət işi ilə əlaqəsi yoxdur.

Z.Hacıyeva bildirib ki, keçmiş həyat yoldaşının Ermənistana səfərlərinə qarşı olub, ona görə narahat olub.

O deyib ki, heç vaxt L.Yunusla görüşməyib, amma R.Mirqədirovun onunla telefonda danışdığını eşidib.

Növbəti məhkəmə iclası avqustun 3-də saat 10:00-da keçiriləcək.

Leyla Yunus 2014-cü il iyulun 30-da, Arif Yunus isə avqustun 5-də həbs olunub. Onlar böyük ölçüdə fırıldaqçılıqda (178.3.2-ci maddə) ittiham olunurlar. Bundan başqa, L.Yunus qanunsuz sahibkarlıq fəaliyyətində (192.2.2), vergi ödənişindən yayınmaqda (213.2.2), sənədləri saxtalaşdırmaqda (320.1 və 320.2) ittiham olunur. İbtidai istintaqın yekunlarına görə hər ikisinə qarşı 274-cü (dövlətə xəyanət) maddə ilə ittiham ayrı icraata ayrılıb.

Leyla və Arif Yunus «Amnesty İnternational» tərəfindən “vicdan məhbusu” kimi tanınıb.

❑ **“Turan”**

# 700 bal toplayan abituriyentlər danışdı

## Onlar hüquqşünas olmaq istəyirlər

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası II və III ixtisas qrupları üzrə imtahan nəticələrini açıqlayıb. II və III ixtisas qrupları üzrə 6 nəfər 700 bal toplayıb. Modern.az III qrup üzrə ən yüksək nəticə göstərən 3 abituriyent haqqında maraqlanıb.**

**Novruzova Lalə** III qrup üzrə maksimum nəticə göstərib. Cəbrayıl rayonunun məcburi köçkün ailəsində dünyaya gələn Lalə Biləsuvar rayonunda onlar üçün salınan 9 saylı qəsəbədə qalır və burada məktəbə gedib. Orta məktəbi yüksək qiymətlərlə başa vuran Lalə iki il repetitor yanına hazırlığa gedib. Özünə güvəndiyini deyən Lalə imtahandan yüksək nəticə göstərəcəyinə əmin olduğunu vurğulayıb.

“Çünki sınaqlarda hər zaman yüksək nəticə göstərmişəm. İmtahan sualları isə hər oxuyan üçün asan görsənir. Mənim bəzi şübhələndiyim suallarım var idi, amma şükür ki, onları da uğurla yazmışam. Qızıl və ya gümüş medala namizədliyimi verməmişəm, amma Respublika üzrə fənn olimpiadasında iştirak etmişəm və Azərbaycan dili, ədəbiyyat üzrə ikinci yeri tutmuşam”. Lalə Prezident yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq fakültəsinə daxil olmaq arzusunda olduğunu bildirib. “Bakalavr pilləsini ölkəmizdə, magistri isə xaricdə oxumaq istəyirəm”.

**Kamran Abdulrəhimov** yüksək nəticə göstərəcəyinə əmin olsa da 700 bal toplamağın şans olduğunu vurğulayıb: “Sınaq imtahanlarından maksimum 682 bal toplamışam. Kürdəmir rayonunda orta məktəbi 7-ci sinfə qədər oxumuşam, 7-10-cu sinifləri Ağdaş Türk Liseyində, son 11-ci sinif isə Türkiyə Dəyanət Vakfı-Bakı Türk Liseyində oxumuşam. Keçən il Ağdaş Türk Liseyində, bu il isə Türkiyə Dəyanət Vakfı-Bakı Türk Liseyində hazırlaşmışam. Qızıl medala namizədliyimi vermişəm. İnşallah, sənədlərimi Bakı Dövlət Universiteti Hüquq fakültəsinə vermək istəyirəm”.





**Xəyalə Əfəndiyeva Qəbələ rayon Vəndam kənd orta məktəbinin məzunudur. İki il repetitor yanında hazırlaşan Xəyalə özünə güvənsə də 700 bal toplayacağını gözləmədiyini vurğulayıb:** “11-ci sinifdə 2 ”4” qiymətim oldu, qalanları isə ”5”dir. Eyni zamanda buraxılış imtahanlarımı da ”5”lə vermişəm. Azərbaycan dili, ədəbiyyat fənn olimpiadasında region üzrə 3-cü yerə çıxmışam. Sənədlərimi Prezident yanında İdarəçilik Akademiyasında Hüquqşünaslıq fakültəsinə verəcəm. Hələ ki xaricdə oxumaq barədə fikirləşirəm”.





# Gəncə Texnologiya Universitetinin rektoru ölkədən qaçıb

## Akif Süleymanov tələbələrin adına saxta təqaüd kartı açıbmış

**Gəncə Texnologiya Universitetində külli miqdarda korrupsiya halı aşkarlanıb. Bu barədə ANSPRESS-ə universitetin məzunları xəbər veriblər. Məlumata görə, tələbələr adına saxta təqaüd kartları açan rektor Akif Süleymanov məsələnin üstü açılandan sonra qaçıb.**





Korrupsiya ilə bağlı baş verənləri universitetin rektor əvəzi Rövşən Əliyev də təsdiqləyib.

Texnologiya Universitetinin rektor əvəzi Rövşən Rizvan oğlu Əliyevin verdiyi məlumata görə, 2015-ci ilin qış aylarında Maliyyə Nazirliyi universitetin maliyyə hesabatlarını yoxlamağa başlayıb.

“Hesablama zamanı nazirliyin ”təftiş komissiyası" bir çox nöqsanlar aşkarlayıb. Bu nöqsanlardan ən əsası odur ki, universitetin rektoru Akif Süleymanov baş mühasiblə əlbir olaraq “Kapital bank”ın Gəncə filialında ödənişli əsaslarla təhsil alan tələbələrin adına saxta təqaüd kartları açıblar. Tələbələrin xəbəri olmadan adlarına açılan bu kartlara hər ay pul köçürülüb. 2012-ci ildən başlayan bu proses bu ilin may ayına qədər davam edib".

Mənimsəmə faktında adı olan Akif Süleymanovun harda olduğunu isə universitetdə bilən yoxdur. Onun sön olaraq Bakıda müalicə aldığı deyilib. Lakin hələ də tapılmır.

Maliyyə Nazirliyi aşkarlanan bu korrupsiya halı ilə əlaqədar Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciət edib. Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əməkdaşları faktla bağlı araşdırmalara başlayıb. Hazırda adlarına saxta kartlar açılan tələbələr universitetə çağırılıb və idarə əməkdaşları tərəfindən dindirilir.

Faktla bağlı cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

Akif Şamil oğlu Süleymanov 2013-cü ildə Azərbaycan Texnologiya Universitetinin rektoru təyin edilib.

# Prezidentin ev verdiyi jurnalisti AzTV-dən çıxardılar



**AzTV-nin İctimai-Siyasi Proqramlar Baş Redaksiyasının əməkdaşı Ağanisə Sultanova işdən çıxarılıb. AzNews.az-a daxil olan məlumata görə, onun işdən çıxarılmasına səbəb AzTV-nin sədri Arif Alışanovla aralarında baş verən narazılıq olub. A.Sultanova işdən çıxarılmasının tam qanunsuz və qərəzli olduğunu bildirib. Qeyd edək ki, Ağanisə Sultanovaya 2013-cü ildə prezident İlham Əliyev tərəfindən jurnalistlərin binasından ev verilib.**

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015

**Amerikalı vasitəçi Ceyms Uorlikin son vaxtlar göstərdiyi diplomatik fəallığa rəğmən, Qarabağ məsələsi ətrafında durğunluq davam edir. Vəziyyətin ümidverici olmadığını həm də ondan görmək olar ki, Azərbaycan və Ermənistan prezidentlərinin son Paris görüşündən 9 ay keçməsinə baxmayaraq, hələ heç xarici işlər nazirləri səviyyəsində də indiyədək ciddi müzakirələr aparılmayıb.**



# "Qarabağ məsələsi Şanxay platformasına keçir"

## Rusiyalı ekspertə görə, Azərbaycan hələ ki Kremlin təsir zonasında deyil; **Qriqori Trofimçuk:** Dağlıq Qarabağ problemi bütövlükdə ŞƏT-in təhlükəsizliyinə təsir edəcək, ona görə də..."

Belə vəziyyət, daha doğrusu, mövcud status-kvo təbii ki, ən çox Azərbaycana əl vermir, çünki əraziləri on illərdir işğal altında qalan yeganə ölkə - tərəf Azərbaycandır. Yaranmış durumda rəsmi Bakı beynəlxalq hüququn ona verdiyi müstəsna hüquqlardan istifadə edərək məsələni istənilən yolla çözmək, yaxud hər hansı başqa həll platformasına keçirmək haqqına sahibdir.

Belə yeni müstəvilər arasında son vaxtlar ən çox Avrasiya İqtisadi Birliyi və Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) adı çəkilir. Hələ ki Avrasiya Birliyi çərçivəsində Qarabağ probleminin ədalətli həllini tapacağı haqda Moskva heç Bakıya heç bir pozitiv işarə verməyib. Yalnız bəzi rusiyalı ekspertlər səviyyəsində belə fikirlər səslənib ki, əgər Azərbaycanla Ermənistan eyni - Avrasiya İqtisadi Birliyi müstəvisində təmsil olunarsa, ixtilafın həlli üçün münbit zəmin yaranar.

Lakin Bakı çətin ki, heç etibarlı zəmanət almadan, ən azı, Dağlıq Qarabağ ətrafındakı ərazilər boşaldılmadan bu varianta getsin və üstəlik, münaqişə zonasına Rusiya hərbi qüvvələrinin yerləşdirilməsinə razılıq versin - hansına ki, Moskva israrla can atır. Bu, ən yaxşı halda - konfliktin qeyri-müəyyən müddətə dondurulması, ən pis halda isə Dağlıq Qarabağ üzərində suverenliyimizin həmişəlik itirilməsi demək olardı *(hər halda, biz ötən əsrin 80-ci illərində Arkadi Volskinin başçılıq elədiyi Dağlıq Qarabağda xüsusi idarəçiliyin nəyə gətirdiyini yaxşı xatırlayırıq).*

*****

Digər yeni dinc nizamlama platforması kimi Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) göz önünə gəlir və cəlbedici təəssürat yaradır. Məlumdur ki, Azərbaycan artıq bu qurumda tərəfdaş statusu qazanıb. Bəs, Qarabağ nizamlanması baxımından bu platforma nə dərəcədə effektli ola bilər?

**Rusiyalı tanınmış politoloq Qriqori Trofimçuk bu xüsusda fikir və mülahizələrini vesti.az portalı ilə bölüşüb. Onun sözlərinə görə, Azərbaycan hələ ki, Rusiyanın təsir zonasında deyil və bu üzdən Qarabağ problemi üçün o, başqa müstəvilər axtara bilər:** "Azərbaycan tədricən ŞƏT iqtisadi əməkdaşlıq zonasına daxil ola bilər - harada ki, siyasi realizm nəzəriyyəsinə uyğun olaraq, mühüm rollardan birini hər halda Çin oynayır. Bu, o anlama gəlir ki, bütün başqa iştirakçı ölkələr "kiçik qardaş" rolundadır. Bakı da seçimini elə-belə etməyib, əksinə, öz iqtisadi qazanclarını və perspektivlərini dərk edərək, daha böyük təhlükəsizliyə ümidlənərək buna gedib".

**Ekspert əmindir ki, Bakı yeni platformadan yararlanaraq Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini qoyacaq:** "Aydındır ki, Azərbaycan və Ermənistan quruma qəbul olunsa, Dağlıq Qarabağ məsələsi bütövlükdə ŞƏT-in təhlükəsizliyinə təsir edəcək. Ancaq burada ikinci bir "cütlüyə" də diqqət eləmək olar. Söhbət aralarında Qarabağ münaqişəsindən heç də az mürəkkəb olmayan konfliktin yaşandığı Hindistan-Pakistan cütlüyündən gedir. Onlar da ŞƏT-ə daxil olan kimi bütün məsələlər üzrə daha güclü tribuna qazanmağa ümid edirlər. Məhz bu səbəbdən ŞƏT-İN Ufa sammitində qəbul edilən yekun bəyannamədə Ukraynadakı vəziyyət də daxil, siyasi problemlərin bütöv bir dəsti öz əksini tapıb".

**Politoloqa görə, ŞƏT bu və ya başqa məsələləri yalnızca şərh və ya bəyan etməli deyil, qurum gec-tez öz mövqeyində təkid eləməyi öyrənməlidir:** "Əks təqdirdə, heç kim ona qulaq asmayacaq və dünyada o, zəruri nüfuz yiyəsi olmayacaq".

*****

Onu da nəzərə alsaq ki, ŞƏT-də BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 2-ci (Çin, Rusiya) təmsil olunub, üstəgəl, Qarabağ məsələsinə Kremlin təsir imkanları hələ ki hamıdan çoxdur, o zaman konfliktin həllinə yeni platformanın pozitiv təsirləri ola da bilər, olmaya da. Ən azı o səbəbdən ki, Rusiya arzulayarsa, nizamlama prosesinə MDB çərçivəsində də real töhfə verər, Avrasiya Birliyi, ŞƏT çərçivəsində və ya təkbaşına da.

**❑ Siyasət şöbəsi**

# Azərbaycanla Gürcüstan arasında məxfi sazişin detalları açıqlandı

## 2010-cu ildə bağlanmış müqaviləyə əsasən, Azərbaycana uçuş aparatlarını müddətsiz və heç bir şərt olmadan təmir etmək imkanı verilib, amma...

**Qafqaz Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Mamuka Areşidze Gürcüstanın "Tbilisiaviastroy" şirkəti və Azərbaycan tərəfi arasında bağlanmış müqavilə haqqında qalmaqallı məlumatı açıqlayıb və gürcü tərəfinin bilərəkdən rəqibinin inkişafına yardım etdiyini yazıb.**



Oxu.az bildirir ki. bu barədə "Qruziya-Online" xəbər yayıb.

"Kviris palitra" qəzetinə müsahibəsində Mamuka Areşidze bəyan edib: "Kuluarlarda belə məlumat yayılıb ki. "Tbiliaviastroy" 2010-cu ildə bağlanmış müqaviləyə əsasən Azərbaycana uçuş aparatlarını müddətsiz və heç bir şərt olmadan təmir etmək imkanı verib. Deyirlər ki, şirkət həmçinin ixtisaslı mütəxəssislərini qonşu ölkəyə göndərib, Azərbaycan kadrlarını hazırlayıb və onların sertifikatlaşdırılmasını həyata keçirib. Nəticədə bu gün Azərbaycanda, xüsusilə də Sumqayıt şəhərində, o cümlədən də Su-25 təyyarələrini əsaslı təmir edən güclü aviasiya müəssisəsi formalaşıb", - deyə, Areşidze bəyan edib.

Onun sözlərinə görə, bununla da Gürcüstan üstünlükdən məhrum olub, çünki ölkə Qafqaz regionunda sovet istehsalı olan Su-25 təyyarələrini əsaslı təmir edə biləcək yeganə dövlət idi.

Bununla yanaşı, ekspertin rəyinə görə, qalmaqallı müqavilənin əlavələrindən aydın olur ki, bu müqavilədən əvvəl, 2008-ci il iyunun 14-də Azərbaycan Müdafiə Nazirliyi və "Tbilaviastroy" arasında digər bir sənəd imzalanıb.

"Həmin müqaviləyə əsasən, 2009-cu ilin sonunadək "Tbilaviastroy" Azərbaycana 124 mln. dollar qarşılığında tam təchiz olunmuş 15 ədəd Su-25 hücumçu təyyarəsi tədarük etməli idi. Bundan başqa, Gürcüstan Azərbaycana 25 milyon 76 min 370 dollar həcmində ehtiyat hissələri satmalı idi.

Lakin görünür, 2008-ci ilin avqust müharibəsinə görə "Tbilaviastroy" sifarişi danışılmış vaxtda yerinə yetirə bilmədi. Məlum olduğu kimi, həmin dövrdə Gürcüstan-Rusiya diplomatik və ticarət əlaqələri kəsildi.

"Tbilaviastroy" isə Su-25 üçün mühərrikləri Rusiyadan alırdı, yəni 2008-ci ildə şirkət texniki təchizat ala bilmədi", - deyə, Mamuka Areşidze bəyan edib.

# Ərdoğanın riskli oyunu



**Azər RƏŞİDOĞLU**

**Türkiyədə siyasi gərginlik yenidən artmaqdadır. Son parlament seçkilərinin yaratdığı hakimiyyət böhranı hakim elitadan çıxış yolları aramağı tələb edir. Proseslər yeni parlament seçkilərinin keçirilməsini tələb edir. Lakin yeni seçkilər də qüvvələr nisbətinə ciddi təsir göstərmək imkanında deyil. Ərdoğana yeni "Davos fatehliyi" lazım idi. Məhz bu yolla AKP itirilmiş seçici səslərini qaytarmağa ümid bəsləyə bilərdi.**

Son günlər Suriya ilə sərhəddə baş verənlər, PKK-ya qarşı aparılan əməliyyat da ehtimal ki, millətçi və islamçı kəsimin səslərini qazanmağa yönəlib. Ərdoğan çevik və eyni zamanda olduqca riskli gedişlər edir. PKK və İŞİD ölkəni terrorla hədələyir. Proseslər idarəolunmaz həddə transfer edərsə, Ərdoğan üçün son dərəcə ağır sınaqlar başlaya bilər. Son nəticədə AKP iqtidardan gedə də bilər. Əgər, proseslər Ərdoğan düşündüyü kimi cərəyan edərsə, AKP yenidən təkbaşına iqtidar ola bilər. Lakin daha bir variant da mümkündür. AKP 2023-ci ilə qədər nəzərdə tutduğu planları reallaşdırmaq üçün yeni liderlə siyasi müstəviyə çıxa bilər. Hazırda AKP-də Ərdoğan qədər xarizmatik olmasa da, nüfuzu heç də az olmayan Numan Kurtulmuşun yeni lider statusunda möhkəmlənməsi də istisna edilmir.

Lakin AKP-nin uğuru Ərdoğanla bağlıdır. İslamçı Ərdoğan çoxları üçün bir simvola çevrildi.

Onun siyasi olimpdə olması bölgədə yaşayan inanclı insanların siyasətə gəlişinə bir stimul verirdi.

Onun həyat yoldaşının, hicablı bir qadının, daima göz önündə olması isə sekulyar həyat tərzi keçirənlərə bir göz dağı idi. Bu, Qərb dəyərlərinə endirilən ağır zərbə idi.

Ərdoğan nümunəsini təhlil edənlər Azərbaycanda da mötədil İslamın siyasətdə əsas amilə çevrilə biləcəyindən ehtiyat edirlər. Odur ki, Ərdoğana yönələn nifrətin onun şəxsi keyfiyyətləri ilə əslində bir əlaqəsi yoxdur.

Ərdoğanın hakimiyyətə gəlişi siyasətə tamamilə yeni paradiqmalar gətirdi. Ölkə daxilində və diplomatiyasında yürüdülən siyasət ənənəvi türk siyasətindən fərqli idi.

Baş verənlər Əhməd Davudoğlunun "Strateji dərinlik" və "Alternativ paradiqma"sına uyğun həyata keçirilirdi.

Adıçəkilən doktrinalardan da göründüyü kimi, Türkiyə bölgənin real gücünə çevrilmək və ABŞ-ın forpostu olmaqdan xilas olmağı arzulayır. Bu isə Qərbin maraqlarına zidd idi.

AKP-nin uğurunun iqtisadi tərəfləri də mövcuddur. 2002-ci ildən hakimiyyətdə olan AKP bu illər ərzində iqtisadi göstəricilərinə görə bir çox uğurlara imza ata bildi. Dövlətin borcları əsaslı dərəcədə azaldı, iqtisadi sabitlik əldə edildi, ümumi daxili məhsul hər il 8 faizdən çox qalxdı, ölkə Avropanın 16 fərqlənmiş iqtisadiyyatının içərisində yer ala bildi. Süqut astanasında olan Türkiyə iqtisadiyyatı BVF-nin köməyi ilə inkişaf etdi. Ankara artıq həmin borclarını da ödəyib. Səhiyyədə, təhsildə aparılan ciddi islahatlar orta və kasıb təbəqənin rəğbətini qazanmağa yardım etdi.

Ərdoğanın sayəsində Türkiyədə hərbi diktatura tendensiyalarına son qoyuldu. Bu inkişaflar bölgədəki ölkələr üçün mötədil İslamı cazibədar edirdi. Bu model İran üçün də keçərli sayıla bilərdi. Ərdoğan məşhur "One minute" jesti ilə İsrail qarşısında əyilməyən Türkiyənin ilk baş naziri idi. "Mavi Marmara" olayında qətiyyətli mövqeyi ilə o, özünü ərəblərə də sevdirə bildi.

Son proseslər də AKP-nin qələbəsi ilə bitərsə, Türkiyənin bölgə lideri olması şansını qaytarır...

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015



# Məsum qohumların cavabdehliyi

**Samir SARI**

**Bu ölkədə qanını qaşığa qoymuş mübariz, mücadiləçi oğlanlar çoxdur. Eyzən ərşlə-gürşlə əlləşirlər. Onların bircə minusları var ki, nə dərəcədə cəsarətli olduqlarını sübut edə biləcəkləri yerdə deyillər.**

Məsələn, Qarabağda erməniyə qan uddurmaqdan danışırlar, amma tutaq ki, Krasnoyarskda yaşayırlar - Lazımdan da şimalda.

Demokratiya uğrunda şəhid olmaqdan bəhs edirlər, amma tutaq ki, Parisdə... yox, qoy Hollandiya yazım, ağıllara başqa adamlar, məsələn, Kamal Qasımov gəlsin.

Hərçənd Kamal qardaşım təmkinli adamdır, hələm-hələm psevdomübarizlik eləməz, ölkədə olub-bitənlərlə vaxtaşırı maraqlansa da, durub ordan bəri öyüd-nəsihət verməz, radikal və emosional çağırışlar yapmaz.

Bu kateqoriyadan olan başqaları da var, hər zaman ölçülü-biçili davranırlar, sinələrinə döyüb virtual qəhrəmanlıq şouları göstərmirlər.

Amma illərdən bəri başımızın ətini yeyən yalançı qəhrəmanlar çoxdur. Bəylər çox radikaldırlar, dövlət rəhbərlərini, xoşlarına gəlməyən müxalifət liderlərini eyzən tənqid edir, arada dozanı artırır, söyüb-yamanlayırlar.

Bəziləri o qədər sərt, barışmaz, acıdil və söyüşcüldürlər ki, vallahi, ölkədə olsalar, onları gəlib redaksiyadaca şapalaqlayıb gedərlər və məsələ təkcə şapalamaqla bitməz.

Əlbəttə, təhlükədən uzaqda olanda adam daha cürətli olur. Məsələn, dünyada hamı İŞİD-dən qorxur, amma İŞİD uzaqda olanda adam az qorxur, yaxınlaşanda qorxu daha da böyüyür.

İndi bəziləri hesab edir ki, gedib Avropanın sərin və təhlükəsiz şəhərlərində oturublarsa, ölkəyə dair istədiklərini yaza, danışa bilərlər. Ona qalsa, biz də burda oturub Şimali Koreyanın prezidenti Kim Çen Inı cəsarətli bir şəkildə yıxıb-sürüyə, ələ sala, "debil" deyə bilərik, amma ŞKXDR-də bunu heç kəs edə bilməz. Ağlından elə şey keçirənin özünə və sülaləsindəki adamlara ölümlərdən ölüm seçdirərlər.

Taksim meydanında şüar qaldırıb "Uyğurlardan əl çəkin!" deyə hayqırmaq asandır, amma bunu Pekindəki Tyanenmen meydanında etmək üçün adamda göndən özəl tikilmiş zireh olmalıdır.

Oxumuş adamlar da deyir ki, real təhlükə olmayan yerdə cəsarət sərgiləmək elə də böyük igidlik deyil.

Hökumət belə cürətli oğlanlarla nə edəcəyini bilmirdi. Neynəsin? Avropa uzaqdır, bir. Kimisə İsrail xəfiyyələrinin Argentinadan gecəylə oğurlayıb gətirdikləri nasist Adolf Eyxmanın gününə qoyub gətirmək mümkün deyil - iki. Üçüncüsü, asi düşmüş adamın ekstradisiyasını tələb edəndə deyirlər, cinayət işini göndərin, baxaq. Məsələn, sabah hökumət Elbəyi Həsənlini tələb etsə, verməzlər.

Ona görə də indi iqtidar avropalı radikallarla mübarizə məqsədilə yeni strategiya işləyib hazırlayıb. Hazırda onların yaxın qohumlarını tuturlar.

Bir halda ki, sən radikallıqdan əl çəkmirsən, barışmaz, prinsipial mübarizə tərəfdarısan və səni heç kəs yolundan döndərə bilməz, qoy onda qohumların cavab versinlər. Yazıq qohumların isə bu cür qəliz terminlərdən bilmərrə xəbərləri yoxdur, bildikləri odur ki, qohum güdazına gediblər.

Yaxşı üsuldur. Amma bu hər adama eyni dərəcədə təsir edən amil deyil. Elə adam ola bilər, nəslinin bütün başıpapaqlılarını tutub içəri bassalar da, deyəcək, cəhənnəmə tutsunlar, gora tutsular, nə vecimə (burada zövqə və tərbiyəyə uyğun olaraq, başqa ifadələr də işlədilə bilər).

Məsələn, bir jurnalist tanıyıram, öymək olmasın, çox sital uşaqdır, qohumlarından da zəhləsi gedir, bir müddət əvvəl deyirdi, qismət olsa, Avropaya yerləşsəm, elə şeylər yazacağam ki, burda bir qohumumu işdə saxlamasınlar, hamısını qovsunlar.

Gənc jurnalist bilmirdi ki, artıq məsələ işdən qovulmaqla bitmir, adamları cələkləyib içəri qoyurlar.

Hökumətin tətbiq etdiyi yeni fənddən sonra kimsə radikallığını azaltsa, bilin ki, qohumlarının qədrini bilir, yox, kimsə kəskin şəkildə radikallaşmağa start versə, əmin olun ki, adamın qəsdi qohumlarını tutdurmaqdır.

***P.S.*** *Uzun illər öncə bir vəzifəli qohumum vardı, nazirlərdən biri ona çox deyirdi ki, qohumuna yiyə dur, o da mənə deyirdi, xeyri olmurdu. Axır bir gün onu mənə "yiyə dura bilmədiyinə görə" işdən çıxardılar. Budur, 12 ildir hər görüşəndə deyir...*

# Mərkəzi Bank kreditlərin faiz dərəcələrinin yuxarı həddini müəyyən etdi

## Ekspertlər bildirirlər ki, banklar artıq bazara elan edilən real faizlərlə razılaşmalı olacaqlar




**Mərkəzi Bank kreditlər üzrə faiz dərəcələrinin yuxarı həddini tətbiq edib. "Trend"ə bank bazarındakı mənbədən verilən məlumata görə, bu qərar ötən həftə qəbul edilib, yalnız istehlak və mikrokreditlərə tətbiq edilir. Mərkəzi Bank banklara istehlak kreditləri üzrə illik faiz dərəcələrinin 29, mikrokreditlər üzrə illik faiz dərəcələrinin 25 faizdən yuxarı olmamasını tövsiyə edib.**

Tələb icra olunmadığı halda inzibati tədbirlər nəzərdə tutulmur. Buna baxmayaraq, ölkənin bütün bankları kreditlər üzrə faiz dərəcələrini Mərkəzi Bankın təklif etdiyi səviyyəyə uyğunlaşdırmağa çalışır.

Hələ iyunun 29-da Mərkəzi Bank istehlak kreditlərinin xidməti üzrə komissiya xərclərinin 1 faizədək azalması ilə bağlı təlimat verəndə bəzi banklar gəlirlərin azalmasını kompensasiya etmək üçün kreditlər üzrə faiz dərəcələrini artırmışdı. Ancaq belə bölgü Mərkəzi Bankı qane etmədi. Çünki yekun məqsəd kreditlər üzrə faiz dərəcələrinin aşağı salınmasıdır. Bununla əlaqədar olaraq Mərkəzi Bank rəhbərləri ilə daha bir görüş keçirməli oldu. Məhz bu görüşdə kreditlər üzrə faiz dərəcələrinin yuxarı həddinə məhdudiyyətlər qoyuldu.

**Ekspertlər isə bildirirlər ki, bu addım doğru qərardır. Ekspert Vüqar Bayramovun sözlərinə görə, bankların süni manevrləri belə müdaxiləni ortaya çıxarıb:** "Bu həftədən kreditlər üzrə faiz dərəcələrinin yuxarı həddi tətbiq edilməyə başlanılıb. Bunu Mərkəzi Bank kommersiya banklarına tövsiyə edib. Belə ki, istehlak kreditləri üzrə illik faiz dərəcələri 29, mikrokreditlər üzrə illik faiz dərəcələri 25 faizdən yuxarı olmayacaq. Kredit faizlərinin inzibati yol la məhdudlaşması liberal iqtisadiyyat prinsiplərinə zidd olsa da, razılaşmaq lazımdır ki, bankların bahalı kreditləri ilə yanaşı effektiv və real faizlər ilə müştərilərin çaşdırılmasına və əksər hallarda aldadılmasına hesablanan süni manevrləri belə müdaxiləni məqbul edirdi. Mərkəzi Bank "faiz tavanını" qərarlaşdırmadığını, sadəcə tövsiyə etdiyini bəyan edə bilər ki, bu, qanunvericiliyə zidd deyil. "Faiz tavanı" nəyi dəyişəcək? Aydındır ki, bu təşəbbüsdə məqsəd faizlərin aşağı düşməsinə nail olmaqdan ibarətdir. Güman olunur ki, kifayət qədər inzibati xarakter daşıyan sözügedən tövsiyə bankların faiz siyasətinə korrektələr etməsinə səbəb olacaq. Başqa tərəfdən, bir müddət öncə komisyon haqlarının məhdudlaşdırılması da bankların "yalançı faizlər"lə bağlı manevr imkanlarını məhdudlaşdırıb".

**Ekspertin sözlərinə görə, Mərkəzi Bankın sektoral mənfəət normasının qorunub saxlanması üçün bankların ucuz kredit resurslarına, o cümlədən mərkəzləşdirilmiş kreditlərə çıxış imkanlarının genişləndirilməsinə ehtiyac var:** "Çünki yüksək gəlirə aludə olan bankların "qara bazar" formalaşdırmaq cəhdləri də istisna edilmir. Təbii ki, daha uzun müddətli və stabil faiz endirimləri üçün bank sektorunun liberallaşması, xarici kapitala mövcud məhdudiyyətlərin yumşaldılması və eləcə də rəqabətin gücləndirilməsi də vacibdir. Bununla yanaşı, gözlənilir ki, bəzi banklar və bank olmayan kredit təşkilatları öz kredit növlərinə dəyişiklik edərək faiz məhdudiyyətindən yayınmağa çalışacaqlar. Belə ki, məhdudiyyətlər istehlak və mikro kreditləri əhatə etdiyindən bankların orta məbləğli kreditlərini biznes kreditləri kimi rəsmiləşdirməyə çalışaraq bu "qadağalardan" qaçmağa çalışacaqları istisna edilmir. Eyni zamanda müştərilər də diqqətli olmalıdırlar ki, banklar onların kreditlərinə 1 faizdən artıq komisyon haqqı hesablamasın və ümumi faizlər 29 faizdən çox olmasın. Eyni zamanda prosesə nəzarət üçün Mərkəzi Bankın monitorinqlərinin gücləndirilməsinə ehtiyac var. Təbii ki, 2015-ci ilin dövlət büdcəsi haqqında qanuna əsasən hər 6 aydan bir dövlət başçısına kredit faizləri ilə bağlı hesabat verən Mərkəzi Bank artıq real azaldılmış faizlərlə öz hesabatını hazırlamalıdır. Uzun müddət effektiv bank faiz dərəcələri ilə spekulyasiya edən banklar komisyon haqlarının məhdudlaşdırılmasından sonra artıq bazara elan edilən real faizlərlə daxil olmaq məcburiyyətində qalacaqlar. Faizlərin real azaldılması isə həmçinin bankların ucuz maliyyə resursları ilə təmin edilməsinin vacibliyini gündəmə gətirdi. Hər halda, son məhdudiyyətlər faizlərə təsir göstərəcək. Prosesin daha hiss edilən faiz azalmaları ilə müşahidə edilməsi də məhz Mərkəzi Bankın yeni qərarlarından və tövsiyələrin monitorinqdən asılı olacaq".

❑ **RÖYA**

# Hökumət Azərbaycanın maliyyə sektoru üzrə hesabatın dərcinə qadağa qoydu




**Dünya Bankı bir həftə əvvəl 2015-2020-ci illərdə Azərbaycan üçün tərəfdaşlıq üzrə çərçivə sənədini (CPF) təsdiq etsə də, onun məzmunu məxfi olaraq qalır.**

Xatırladaq ki, CPF Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD), Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və Çoxtərəfli İnvestisiya Zəmanətləri Agentliyinin (MIGA) Azərbaycanda davamlı, inklyüziv və özəl sektora yönələn əməliyyatlarını tənzimləyir.

"Turan"ın məlumatına görə, sənədin açıqlanmasına Azərbaycan hökuməti qadağa qoyub. O, əvvəllər Beynəlxalq Valyuta Fondunun maliyyə sektorunun qiymətləndirilməsinin ikinci proqramının (FSAP) açıqlanmasını qadağan etmişdi. BVF-nin icraçı direktoru iyulun 17-də bu ilin yazında keçirilən Maliyyə Sektorunun Sabitliyinin Qiymətləndirilməsinə baxılmasını başa çatdırıb. Amma rəsmi Bakı onun açıqlanmasını qadağan edib.

BVF və DB FSAP-ı 2-17 martda həyata keçirib. Buraya maliyyə sektorunun inkişafı və sabitliyinin qiymətləndirilməsi daxil edilmişdi. Hüquqi, tənzimləyici və nəzarət məsələlərinə, əsas maliyyə xidmətlərinə, kapital bazarı və ipotekaya, maliyyə resurslarının əlçatanlığına xüsusi diqqət ayrılmışdı.

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015

**Məcbur olsa da, olmasa da, özünü hər gün kompüter arxasına həbs edən insanlar var. Adam var işinə görə, adam da var, sırf bekarçılıqdan dördkünc alətin qarşısında sutkanın yarıdan çoxunu keçirir. Və fərqində deyil ki...**



# Dünya onu QİÇS-lə müqayisə edir

## Kompüterdən və internetdən asılılıq insanları necə ölümə aparır?

### Xəstəlik kimi təsdiqləndi və müalicə mərkəzi də açıldı...

Çinin paytaxtı Pekindəki İnternet Asılılığından Müalicə Mərkəzi (Daxing Internet Addiction Treatment Centre, IATC) internetdən asılı duruma düşərək "şəbəkə qulları"na çevrilmiş insanların müalicəsi ilə məşğul olur. 2006-cı ildə fəaliyyətə başlamış bu mərkəzdə hazırda 6 min pasiyent var. Hərbi təlim düşərgəsinə bənzəyən İATC rəhbərliyinin dediyinə görə, buradakı pasiyentlərin 75 faizi internet asılılığı sindromundan müalicə olunub. Hazırda 632 milyon internet istifadəçisi olan Çində ən azı 24 milyon nəfərdə internet asılılığı sindromu olduğu bildirilir.

Çin ordusunun polkovniki, professor Dan Ran İATC-ın rəhbəridir. O, internet asılılığının müalicəsi üzrə Çində ən məşhur mütəxəssis sayılır.

Almaniyadakı Bonn Universiteti və Ruhi Sağlamlıq Mərkəzi İnstitutunun araşdırmaçıları internet asılılığı ilə bağlı keçirdikləri təcrübənin nəticələrini ictimaiyyətə açıqlayıblar.

Onların fikrincə, internet asılılığının nikotin və alkoqol asılılığı kimi molekulyar genetik səbəbləri ola bilər. Alimlər buna görə insanın gen bölgəsindəki dəyişiklikləri müşahidə edib. Araşdırmaçılar, sözügedən gendəki mutasiya və internet asılılığı arasındakı münasibəti daha yaxından araşdırmaq üçün başqa araşdırmalara da ehtiyac duyulduğunu bildirib.

Amma alimlər 843 insanın internetdən istifadə vərdişləri haqqında sorğu keçirəndə məlum olub ki, bu insanların gündəlik həyatları internet tərəfindən yönləndirilir. Onlar internetdən uzaq dayanmaq məcburiyyətində qalanda isə rahatlıqlarının pozulacağını düşünürlər. Finlandiyanın yarıdan çox gənc vətəndaşı sosial şəbəkələrdən və internetdən asılıdır.

İnternet asılılığı o zaman təhlükəli sayılır ki, sosial şəbəkələrdə keçirilən vaxt şəxsi həyatı da əhatə edir.

Sosioloqlar iddia edir ki, sosial şəbəkələrin müasir insanın gündəlik həyat tərzinə çevrilməsinə baxmayaraq, internet ünsiyyəti dəstəkləmək üçün sutkada 40-60 dəqiqə kifayət edir. Bu halda əgər insan gününün 4-6 saatdan artıq vaxtını sosial şəbəkələrdə keçirirsə, ona artıq internet asılılığının yaranması diaqnozu qoymaq olar.

### Oyun xəstəliyi də dünyanı qarsır...

Avropada kompüter oyunları asılılığını araşdıran bir klinika açılıb. **Klinikanın qurucusu Keith Bakker** hesab edir ki, oyun oynama asılılığı psixoloji yox, sosioloji problemdir. Onun fikrincə, bunu ayrı-ayrı fərdlərin problemi adlandırmaq olmaz. Çünki oyun xəstəliyinə düçar olan gənclərin 80 faizi məktəblərində əzilmiş, özlərini kənarlaşdırılmış hiss edirlər. K.Bakker hesab edir ki, bütün problemlər keçmiş dəbdə olan xəbərləşmə ilə həll oluna bilər.

Alimlər müəyyənləşdirib ki, kompüter oyunları çox əyləncəlidir, onun arxasına keçəndə və həqiqətən əylənəndə vaxtın necə keçdiyini bilmək olmur. Bir saat daha, bir az daha, növbəti bölümü də adlayınca təxirə salmalarla oyun müddəti planları kölgədə qoyur. Maraqlıdır ki, bəzi oyunçular "bəsdir" deməyi bacarır və insanlar oyundan ayrılıb gündəlik həyatın axınına qarışa bilir. Amma bəzi oyunçular üçün kompüterin arxasından ayrılmaq çətindir. Çünki kompüter oyunu əyləncəli olmaqla yanaşı, insanı sevindirir. Oynayanların beynində xoşbəxtlik hormonunu artırır. Mükafat və uğur perspektivi isə onu daha da oyuna cəlb edir və nəticə... Müvəqqəti sevinc hissi insanın yuxu saatları ilə yanaşı, onun orqanizminə də zərbə vurur. Yuxu zamanı təmin olunan hormonların düzənləyici təsiri olmadan keçən günlər, oyun sevinci nəticəsində əldə edilən sevinc hormonları ilə əvəz edilir ki, bu da bəs etmir.

Bunun ardınca isə oyunçu gündəlik həyatdakı önəmli işlərini görməməyə, təxirə salmağa başlayır. Bu təxirə salmaların ardında isə oyunçu gündəlik həyatda ailədə və toplumda vəzifəsini yerinə yetirməz vəziyyətə çatır. Bu isə problemdir və ailə bundan narahat olmağa başlayır. Dərslər və ya iş axsamağa başlayır. Amma bununla bağlı da müəyyən limit var. Məsələn, gündə bir saat oyun oynayan adamları əsla oyun xəstəliyinə tutulan hesab edə bilmərik. Amma insan gündə 20 saat oyun oynayıb, başqa heç bir şey etmirsə, bu, vəziyyətin qəliz olmasından xəbər verir.

"İnsan o qədər lüzumsuz informasiya qəbul edir ki, bu da yaddaş pozuntusuna səbəb olur. Yorğunluq yaranır, boyun, onurğa və bel əzələlərində ağrılar müşahidə olunur. Çünki insan komputer qarşısında saatlarla hərəkətsiz oturur. Bu, gözlərə də mənfi təsir göstərir". Qapalı şəraitdə internetdən istifadənin beyində karbon qazının miqdarını artırdığını deyən nevropatoloq bunun qidalanma pozuntusuna və iştahasızlığa səbəb olduğunu söylədi. Nəticədə, mədə-bağırsaq və qəbizlik problemləri ortaya çıxa bilər. Psixoloq Ellada Bayramova internet asılılığının psixoloji dəyişikliklərə də səbəb olduğunu vurğuladı: "Həyata baxış tərzləri dəyişən bu insanlar başqalarına qarşı aqressiv davranırlar, özlərindən razı olurlar. Xüsusilə döyüş səhnələri ilə dolu olan internet oyunları psixologiyaya daha neqativ təsir göstərir". Həmsöhbətim xüsusilə gənclər arasında internet aludəçilərinin sayının artdığını qeyd etdi. Onun sözlərinə əsasən, gənclər düşdükləri vəziyyəti qəbul etmək istəmirlər. "Kompyuter otağının havası təmiz olmalıdır. İdman hərəkətləri ilə məşğul olmaq lazımdır. Lazımsız informasiya qəbulunu dayandırın. İnternetə ayırdığınız saatların miqdarını isə tədricən azaldın".

### Alver, qumarla... bərabərləşdirilən xəstəlik

**Ankara Psixiatriya Klinikasında çalışan həkim Tuncer Okayın** İnternet Araşdırma Komissiyasına "İnternet asılılığı" başlıqlı hesabat təqdim edib. Hesabatda bildirilir ki, "internet asılılığı" diaqnozu qoyulan şəxslərin maddə asılılığına olan meylliliyi psixiatriya klinikalarında başlıca araşdırma mövzusu olub.

Psixiatr Kimberly Youngun "İnternetdən asılılığın meyarları" adlı yazısının dərc edildiyi hesabatda bu asılılığın növləri arasında pornoqrafik ehtirasın ilk sıralarda yer aldığı bildirilir. Ondan sonra oyun oynama, ictimai media fəaliyyətləri, internetdən alver etmə və qumar gəlir.

### Youngun başlıca meyarları

**Hesabatda Youngun başlıca meyarları belə sıralanıb:**

*- Zehni daimi olaraq internetlə məşğul etmək (fasiləsiz olaraq interneti düşünmək, internetdəki fəaliyyətlərin xəyalını qurmaq, internetdə edilməsi planlanan bir sonrakı fəaliyyəti düşünmə və s.)*

*- Həzz almaq üçün getdikcə internetdən daha çox istifadə etməyə ehtiyac duymaq.*

*- İnternetdən istifadəyə nəzarət etmə, istifadəni azaltma və ya internetdən tamamilə imtina etməyə müvəffəqiyyətsiz cəhdlərin olması.*

*- İnternetdən istifadəsinin azaldılması və ya tamamilə kəsilməsi vəziyyətində narahatlıq və ya əsəbi olmaq.*

*- Planlaşdırılandan daha uzun müddət internetdə məşğul olmaq.*

*- Həddindən artıq internetdən istifadə etmək səbəbi ilə dostlarla, ailə, məktəb və ya iş yerində problemlər yaşamaq, təhsil və karyera ilə əlaqədar hər hansı şansı təhlükəyə atmaq, ya da itirmək.*

*- Başqalarına (ailə, dostlar və s.) internetdə olma müddəti ilə əlaqədar yalan danışmaq.*

*Xarakterizə edilən xəstələrin nisbətinin ümumi istifadəçilərin 1.98-3.5 % qədər olduğu, internet asılılığı baxımından risk altında ola biləcəyi düşünülən istifadəçilərin nisbətinin isə 8.68-18.4 % arasında olduğu qeyd edilib.*

Hesabatda bir istifadəçinin orta hesabla təxminən həftədə 2.5-3 saat internetə bağlı qaldığı, bəzi vaxtlarda isə bu müddətin təxminən 8-40 saat arasında olduğu ifadə edilib. Həftədə 8-40 saatı kompüter başında keçirənlərin fasiləsiz 20 saata qədər kompüterdən kənarlaşmayacağı təqdirdə xəstəyə klinik müalicə üsullarının tətbiq olunması lazım olduğu izah edilib.

### Kişilər internetdən daha çox asılı olur

**Hesabatda qeyd edilir:** "İnternet asılılığı gec yaşlarda başlayan psixoaktiv maddə, spirt və qumar asılılığının əksinə olaraq, daha gənc yaşlarda başlayır". Bu asılılığın hər iki cinsdə də mövcud olduğu, ancaq kişilərdə qadınlara nisbətən 2 və ya 3 dəfə daha çox olduğunun təsbit edildiyi vurğulanıb. İnternetdən asılı olanların 38 %-də maddələrdən asılılıq müəyyən edildiyi, 33 %-də duyğu pozğunluğu, 25%-də isə depressiya görüldüyü ifadə edilib. Aludəçiliyin əsas patologiyasının qumar olduğu qeyd edilib.

İnternet asılılığının yalnız psixoloji deyil, fiziki problemlərə də gətirib çıxardığı bildirilib. Bunların arasında kökəlmə və kürək ağrısı daha geniş yayılıb.

Amsterdamda qurulan Smith Jones klinikasında oyun xəstələrini bu bəladan qurtarmaq üçün öncə ciddi müşahidə edirlər. Məlum olur ki, alkoqolik və narkotiklərdən fərqli olaraq, onları müşahidə etmək, nəzarət altında saxlamaq daha asandır. Yəni yeməyini, suyunu ver, özünə toxunma, söz soruşma.. saatlarla oyun oynasın. Klinika həkimləri bu tip adamları qumarbazlarla da müqayisə edir. Hər oyuna "bu dəfə udacam" istəyi, əzmi ilə başlama onları saatlarla kompüterdən ayıra bilmir. 8 yaşındakı uşaqların belə müalicə olunduğu klinikada insanlar oyunu əvəz edəcək əyləncələrə cəlb edilir. Terapistlərin rəhbərliyi ilə bu cür adamlar qrup halında gəzintiyə, kinoteatra aparılır, mütaliəyə cəlb edilir və sair.

### Onları internet öldürüb

İngiltərənin Sheffield şəhərində yaşayan 20 yaşındakı Cris Stanifort yoldaşları ilə birlikdə 12 saat boyunca X-Boxda oyun oynadıqdan sonra birdən pisləşərək həyatını itirdi. Crisin ölümü ailə və dostları ətrafında böyük qarışıqlığa gətirib çıxarıb. Meyitin yarılması nəticəsində məlum olub ki, ölüm səbəbi hərəkətsizliklə bağlı damar içi laxtalanmadır. Crisin atası isə deyib ki, valideynlər çox vaxt kompüter oyunu oynamanın uşağa verə biləcəyi zərəri düşünmür. Əksinə, düşünür ki, uşaq evdədirsə, deməli, təhlükəsizdir. Crisin sanki kompüter oyunları üçün yaşadığını ifadə edən atası oğlunun video oyunu dizayncısı olmaq istədiyini və Leicester Universitetinə qəbul olduğunu deyib. Ölümün ardınca oyunu çıxaran şirkəti günahlandırmağı düşünmədiyini vurğulayan ağrılı ata, "Bu onların səhvi deyil. Etməmiz lazım olan şey uşaqlarımızı şüurlandırmaq idi" deyib.

Hazırda dünyada hər 10 oyunçudan biri asılı, hər 10 adamdan 2-sinin də asılı olma riski var. Araşdırmalar göstərib ki, bu xəstəliyə gənc kişilər olmaqla, daha çox kişilər tutulur. Qadınlar arasında isə alış-veriş xəstəliyi daha geniş yayılıb.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015

# Əhali səyyar "ASAN Xidmət"lərdən razılıq edir

## Vətəndaşlar xidmətin keyfiyyətindən razıdır, amma...

**"ASAN Xidmət" bir müddətdir ki, səyyar xidmətlər göstərməyə başlayıb. Bir neçə həftə davam edən bu tədbirlər zamanı rayonların sakinlərinin sənəd probleminin həllinə çalışılır. İyulun 22-dən "ASAN Xidmət" Şəki şəhərində səyyar şəkildə xidmət göstərməkdədir. Səyyar xidmət 15 gün davam edəcək. Hazırda Şəkidə 30 nəfərə yaxın əməkdaşdan ibarət qrup vətəndaşlara xidmət göstərir.**

Şəhərin mərkəzi küçəsində yerləşdirilən xüsusi avtobusda səhər 9-dan axşam 6-dək ərizələr qəbul edilir. Xidmətin əməkdaşları bildirirlər ki, gün ərzində bir neçə yüz ərizə qəbul edirlər. Daha çox müraciətlər isə şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlıdır.

Söhbətləşdiyimiz vətəndaşlar da xidmətin keyfiyyətindən razılıq edirlər. Həmçinin, bildirirlər ki, səyyar xidmətin vaxtının qısa olması onların sənəd problemini tam həll etmir. Çünki rayon sakinlərinin həllini gözləyən çox sayda sənəd problemləri var.

"ASAN Xidmət"in ictimaiyyətlə əlaqələr sektorunun rəhbəri Anar Hüseynov isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, 2013-cü ilin iyun ayından etibarən "ASAN Xidmət" mərkəzlərinin təsis edilmədiyi regionların əhalisinə xidmətlərin çatdırılması məqsədi ilə xüsusi avtobuslar vasitəsilə səyyar xidmətlər göstərilməyə başlanılıb və bu günədək iki yüz minədək vətəndaşa xidmət göstərilib: "Regionlarda yaşayan əhaliyə səyyar xidmətlərin keyfiyyətli və davamlı şəkildə göstərilməsinin təşkili məqsədilə səyyar xidmət avtobuslarının sayı artırılaraq 10-a çatdırılıb. Cari ilin birinci yarısında səyyar "ASAN Xidmət" avtobusları vasitəsilə Bakı şəhəri və onun qəsəbələrində, Abşeron rayonunun qəsəbə və










kəndlərində, eləcə də respublikanın 8 rayonu da daxil olmaqla, ümumilikdə 14 rayonun 17 məntəqəsində əhaliyə səyyar formada xidmət göstərilib. Hazırda səyyar "ASAN Xidmət" öz fəaliyyətini Bakı şəhərinin Binə qəsəbəsi, Şəki, Salyan, Yardımlı, Quba və Ağstafa rayonlarında davam etdirir".

Onun sözlərinə görə, cari ilin sonuna kimi səyyar "ASAN Xidmət" bir neçə istiqamət üzrə regionlarda əhaliyə xidmətlər göstərməyə davam edəcək. Səyyar "ASAN Xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

**Əksər ekspertlər də bildirirlər ki, "ASAN Xidmət"in bütün rayonlarda daimi şöbələri yaradılmalıdır. Ekspert Qadir İbrahimlinin sözlərinə görə, bu, vətəndaşların çoxsaylı problemlərinin həlli üçün uğurlu addım ola bilər:** "Ümumi götürəndə, "ASAN Xidmət" pozitivdir, konkret standartlara uyğun aparılır, vətəndaşlar da bundan faydalana bilir. Ancaq bu səyyar asan xidmətlərin təşkili bir tərəfdən müsbət olsa da, digər tərəfdən, sakinlərin sənəd problemi o qədər çoxdur ki, tam həll etmək mümkün deyil. Səyyar xidmət vasitəsilə o problemləri həll etmək olmaz. Yaxşı olardı ki, bu ərazilərdə daimi fəaliyyət göstərən "ASAN Xidmət" yaradılsın və vətəndaşlara həmin xidmətləri daim göstərsinlər. Çünki səyyar xidmətlərin təşkili problemi bir qədər yumşaltsa da, tam həll edə bilmir. Problemlərin sayı çoxdur. Daimi fəaliyyət göstərən "ASAN Xidmət"lər yaradılmalıdır. Çünki "ASAN Xidmət" ölkədə rüşvətsiz və keyfiyyətlə xidmət göstərən yeganə nümunədir".

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Ali məktəbə daxil ola bilməyən daha bir gənc özünü asdı

**Gəncədə intihar hadisəsi baş verib. APA xəbər verir ki, Gəncə şəhər sakini, 1998-ci il təvəllüdlü Ruhin Mayıs oğlu Bədəlov yaşadığı evdə özünü asaraq intihar edib. Yaxınlarının bildirdiyinə görə, R.Bədəlov ali məktəbə daxil ola bilmədiyinə görə intihar edib.**

Xatırladaq ki, iyulun 26-da da Kürdəmir rayonunda bir gənc eyni motivlə intihar etmişdi. Rayonun Pirili kəndində yaşayan 1997-ci il təvəllüdlü Qəhrəmanova Bikəxanım Rəhim qızı özünü asmışdı.

Bugünlərdə 18 yaşlı B.Qəhrəmanova ali məktəbə qəbul olunmaq üçün imtahan verib. Lakin onun nəticələri qənaətbəxş olmayıb. Bundan sonra sarsıntı keçirən 18 yaşlı qız özünü öldürüb. B.Qəhrəmanova nişanlı olub.



## Neftçala sakinini camış vurub öldürdü

**Neftçala rayonunda bədbəxt hadisə baş verib. Virtualaz.org saytının Şirvan bürosunun əldə etdiyi məlumata görə, iyulun 27-də saat 14-15 radələrində Neftçala rayonunun Dördlər kəndindəki balıqçılıq təsərrüfatının gözətçisi Ələddin Fətalı oğlu Zeynalovu camış vuraraq öldürüb.**

62 yaşlı gözətçi qoruduğu əraziyə girən camış sürüsünü qovlamaq istədikdə heyvanlardan biri bundan qəzəblənərək ona hücum edib və döş qəfəsindən buynuzu ilə vurub. A.Zeynalov aldığı xəsarətdən elə hadisə yerindəcə dünyasını dəyişib.

Faktla bağlı Neftçala Rayon Prokurorluğunda araşdırma aparılır.

### Elan

**Sadıqov Yunis Əli oğluna Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş Qeydiyyat Şəhadətnaməsinin və VÖEN 1800962871 itdiyi üçün etibarsız sayılır.**

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS english EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 163 (6191) 29 iyul 2015

**“Evrascon” ASC-nin işçiləri dörd aydır maaş ala bilmirlər. Onlar əməkhaqlarını ala bilməməklə bərabər, işdən qanunsuz olaraq çıxarılmaqla da hədələnirlər. Şirkətin Qazaxıstanda çalışan işçiləri musavat.com-a bildiriblər ki, aylardır ki, maaş üzünə həsrətdirlər: “Artıq 4 aydır maaş ala bilmirik. Maaşların gecikməsi nəticəsində banklara olan kredit borclarımız gecikir. Nəticədə kredit faizləri çoxalır və biz kredit borclarını verə bilmirik”.**

# Abid Şərifovun şirkəti dörd aydır işçilərə maaş vermir

## “Evrascon” ASC-nin Qazaxıstandakı işçiləri İlham Əliyevə müraciət hazırlayır

**Həmçinin işçilər bildirirlər ki, “Evrascon” ASC-də işçilərin hüquqları kütləvi şəkildə pozulur:** “On iki saat iş rejimi, ezamiyyət və məzuniyyət hüquqları pozulur. İşçilər bayramlarda da işlədilir. Ayda 26-28 iş günümüz var. Dəfələrlə rəhbərliyə müraciət etməyimizə baxmayaraq, problemlərimiz həll edilmir. Əksinə, bizi işdən qovmaqla hədələyirlər”.

**Bildirilir ki, Qazaxıstanda maaş ala bilməyən işçilərin sayı 500 nəfərə yaxındır:** “Səbəb kimi pulun olmadığını göstərirlər. Maaşların nə zaman veriləcəyi də məlum deyil, heç bir dəqiq vaxt demirlər”. Bu ilin fevralında işçilər kütləvi şəkildə ixtisar da edilib: “Beş min nəfərin tən yarısı ixtisara düşdü. Biz Azərbaycanın dövlət başçısı İlham Əliyevə müraciət hazırlayırıq”.

Qeyd edək ki, tikini şirkəti olan “Evrascon”un böhran keçirdiyi bildirilir. İşçilərin tətilə başlayacağı da verilən məlumatlar arasındadır. Bu firma Azərbaycanda nəqliyyat infrastrukturunun tikintisi sahəsində iri layihələrin həyata keçirilməsi ilə məşğul olan “Azərköprü” ASC-dir, adını dəyişib. Bildirilir ki, ASC-nin fəaliyyətində ciddi maliyyə maxinasiyalarına yol verilib, milyonlarla vəsait təyinatı üzrə xərclənməyib. Şirkətin baş nazirin müavini Abid Şərifovun dəstəyi ilə fəaliyyət göstərməsi barədə məlumatlar da var. Şirkətin fəaliyyəti Azərbaycanla məhdudlaşmır və ölkə hüdudlarından kənarda da, məsələn, Rusiya, Qazaxıstan, Özbəkistan və sair kimi ölkələrdə infrastruktur obyektlərinin inşası ilə məşğuldur. Şirkət 2013-cü ildə şirkət adını dəyişərək, “Avro-Asiya İnşaat Korporasiyası” “Evrascon” ASC olub.

Bir müddət əvvəl “meydan.tv” yazmışdı ki, A.Şərifovun həyat yoldaşı Sədayə Yaqub qızı “Evrascon” ASC-nin səhmlərinin 22 920 ədədinin *(nizamnamə kapitalının 12,15 faizi)* mülkiyyətçisidir. Şərifovların “Evrascon” ASC-yə birbaşa bağlılığını onların seçici siyahıları üzrə qeydiyyat ünvanı göstəriciləri də təsdiq edir. Onların hər ikisi Bakı şəhəri, Azadlıq prospekti, ev 144, mənzil 73 ünvanında qeydiyyatdadırlar. Bu, reyestr göstəriciləri ilə eynidir. “Azərköprü” ASC-nin uzun illər bir çox dövlət sifarişlərini birbaşa və tender yolu ilə əldə etməsini həm biznes dairələri, həm də ictimaiyyət tikinti sektorunu “kurasiya” edən Abid Şərifov faktoru ilə əlaqələndirirdi. Çox da uzaq olmayan 2011-ci ildə şirkət 260,2 milyon manatlıq, 2012-ci ildə isə 302,3 milyon manatlıq iş həcmi yerinə yetirib. Həm Şərifov, həm də şirkətin özü təbii ki, himayədarlıq faktını hər zaman inkar edib.

“Evrascon” ASC-nin nəzarət səhm zərfi *(51,2 faiz)* cəmiyyətin Müşahidə Şurasının sədri İsmayıl Əfəndi İsmiyevə məxsusdur. İsmiyevin Türkiyədə “Effendi International Group” inşaat-sənaye şirkətinə, eləcə də vaxtilə “Texnomost” adını daşıyan “Hidrotexniki və Nəqliyyat Qurğularının Layihələndirilməsi üzrə Gidrotransproyekt Elmi-Tədqiqat Mərkəzi” MMC-yə sahib olduğu bildirilir. Bu şirkət həm də “EVRASCON” ASC-nin 16,89 faizinə nəzarət edir.

❑ **Röya RƏFİYEVA**




# Yanan binanın təmiri ilə bağlı şok iddia

## “Binanı təmir etmək deputat Ağalar Vəliyevin boynuna qoyulub”

**Baş nazirin müavini Abid Şərifov ANS televiziyasına açıqlamasında mayın 19-da Binəqədidə 15 nəfərin ölümü ilə nəticələnən yanğın zamanı tamamilə sıradan çıxmış 16 mərtəbəli binanın təmirinin sentyabrın 15-nə - yeni dərs ilinədək yekunlaşdırılacağını və sakinlərə təhvil veriləcəyini deyib. Abid Şərifov bildirib ki, onlar işlərin məhz 15 sentyabradək qurtarılması haqda tapşırıq alıblar və bu, şagird və tələbələrin yeni dərs ilinə daha rahat getmələrini təmin etmək üçün vacibdir.**

Eyni zamanda baş nazirin müavini təmir işlərinin yüksək səviyyədə aparıldığını vurğulayıb: “Mənzillər yüksək keyfiyyətli tikinti materiallarının istifadəsi ilə təmir edilir, bütün mənzillər mebellə təmin olunacaq, yalnız mətbəx mebeli ilə yox, yataq mebeli ilə də təmin olunacaq”.

Ancaq strateq.az-ın əldə etdiyi məlumatlar yanan binada aparılan təmir işlərinin ləngidiyini və sentyabrın 15-dək təhvil verilməsinin xeyli çətin olacağını göstərir. Əsas səbəb isə təmir işlərini boynuna götürmüş şirkətin maliyyə problemlərinin yaranması, təmir-tikinti aparan işçilərin əməkhaqlarının vaxtında verilməməsi, işçilərin narazılığı və işçi heyətinin tez-tez dəyişilməsidir.

Strateq.az saytına binada çalışmış, adının yazılmasını istəməyən şəxslərdən birinin verdiyi məlumata görə, binanın 5 ay ərzində sakinlərə təhvil verilməsini öhdəsinə götürmüş “Azəraqrartikinti” Səhmdar Cəmiyyəti hazırda çox ciddi maliyyə çətinlikləri ilə üzləşib: "Bina ictimaiyyətin diqqət mərkəzindədir. Onun təmiri üçün dövlət tərəfindən 5 milyon manat vəsait ayrılıb. Amma indi bu vəsaitin “Azəraqrartikinti”nin hesabına köçürülmədiyi deyilir. Hər halda, bizim rəhbərlərin bəziləri belə xəbərlər yayıblar. Bizdə danışırlar ki, qeyri-rəsmi olaraq binanı təmir etmək Səhmdar Cəmiyyətin prezidenti, deputat Ağalar Vəliyevin boynuna qoyulub. Ağalar müəllim də bu qədər pulu tapa bilmir. Məcbur olub öz işçilərinin maaşlarını kəsib, başqa xərclərini azaldıb. Amma bununla belə, yenə maliyyə gərginliyi yaşanır, işçilərə qəpik-quruş verilir. Bu da ciddi narazılıqlara səbəb olur. Mətbuatın diqqətində bu problemlərlə qalmaq yenidən millət vəkili seçilmək niyyətində olan Ağalar müəllimin maraqlarına qətiyyən uyğun deyil. Tapşırılan işi bərbad etmək onun karyerasına son qoya bilər. Ona görə də düşdüyü ağır durumdan çıxış yolları arayır"- deyə, mənbə vurğulayıb.

Qeyd edək ki, “Yeni Müsavat”da yanan binada gördükləri işlərin müqabilində verilməli olan pulların bir hissəsini ala bilməyən iş icraçısı Cəfər Şərbətov və Yaşar Hüseynovun şikayətləri dərc olunmuşdu. Şikayətçilər iş icraşısı Emil Hacıyevin ünvanına ağır ittihamlar səsləndirmişdilər.

# Köçkün “Qaçqınkom”un qarşısında özünü yandırdı-təfərrüat

## Sahib Nəsibovun sol əli, baldırı və ayağı yanıb

**Ağdam rayonundan məcburi köçkün olan 1961-ci il təvəllüdlü Sahib İsmayıl oğlu Nəsibov üzərinə yanacaq tökərək özünü yandırıb. Hadisə Bakıxanov qəsəbəsi Sülh küçəsi 1 A ünvanında qeydə alınıb. Həmin ünvanda isə “Qaçqınkom”un Sabunçu rayon şöbəsi yerləşir.**

S.Nəsibov 3-cü dərəcəli yanıq xəsarəti ilə Respublika Yanıq Mərkəzinə yerləşdirilib. Sahib Nəsibovun sol tərəfi yanıb.

Bu barədə virtualaz.org saytına açıqlamasında Respublika Yanıq Mərkəzinin rəhbəri Şöhrət Məmmədov bildirib.

Ş.Məmmədovun sözlərinə görə, Sahib Nəsibovun sol əli, baldırı və ayağı yanıb: “Xəstə II və III dərəcəli yanıq xəsarəti alıb. Hələlik heç kimlə danışmaq istəmir. Lakin həyat yoldaşı hadisə ilə bağlı məlumat verib. Qadının sözlərinə görə, onlar kirayədə yaşayıblar. İmkansızlıqdan "Qaçqınkom"a müraciət ediblər. Komitədən isə onlara ev verilməyəcəyini deyiblər. Buna görə də Sahib üstünə benzin tökərək yandırıb. Biz hadisə ilə bağlı hüquq-mühafizə orqanlarına məlumat vermişik".



**“Qaçqınkom”un Sabunçu rayon şöbəsindən isə deyiblər ki, “Qaçqınkom”un nümayəndəsi Akif Rufullayev Sabunçu Rayon İcra Hakimiyyətinə dəvət edilib:** “Akif Rufullayev icra hakimiyyətində iclasdadır. Gələndən sonra özü məlumat verə bilər. Amma saytlar yalan yazıb, heç kim özünü yandırmayıb. Jurnalistlərdir də...”

**Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinə məxsus telefonlara cavab verən şəxs də hadisə haqqında məlumatsız olduğunu dedi:** “Mətbuat xidmətinin əməkdaşları işdə yoxdur. Mən də başqa şöbədə çalışıram. Sizin suallarınızı cavablandıra bilmərik”.

Komitəyə məxsus digər telefonları cavablandıran şəxs isə “Gündə bir qaçqın özünü yandıracağı ilə hədələyir. Nə bilim nə baş verib”-deyə cavab verdi.

# YENİ MÜSAVAT

## Son səhifə

N 163 (6191) 29 iyul 2015


# Tərbiyəçi uşağı günəşin altında yandırdı

Amerikada yaşayan 7 yaşlı uşağın bədəni qoruyucu krem çəkmədən günəşə çıxdığı üçün tanınmaz hala gəlib. Şiddətli yanıq ağrıları olan uşağın yaxşılaşması üçün həkimlər əllərindən gələni edirlər. Belində böyük suluqlar əmələ gələn uşağın bədəninin bu hala düşməsinin günahkarı isə bağça müəllimdir. Tərbiyəçi uşağı saatlarla günəşin altında saxladığı üçün bədənində ağır yaralar əmələ gəlib. Adı açıqlanmayan 7 yaşlı uşaq 5 yaşlı qardaşı ilə birlikdə özəl bir xəstəxanada müalicə edilir. Uşaqların xalası 5-7 yaşlı uşaqların şəkillərini facebook sosial şəbəkəsində paylaşaraq onların çox ağrıdığını bildirib.





## Günəşin xeyri və ziyanı...

Bütün canlıların həyatı üçün lazımlı olan günəş şüalarının insan sağlamlığına faydaları ilə yanaşı, zərərli təsirləri də var. Önəmli olan - insanın günəşdən düzgün yararlanması, səhhətinə diqqət yetirməsidir. Günəş döş və bağırsaq xərçənginə yaxalanma riskini azaldır. Günəşin isbat olunmuş bir sıra faydaları var ki, bunlar insan orqanizmi üçün çox önəmlidir. Belə ki, günəş işığı insanlarda depressiyanı aradan qaldırır. Eləcə də sümüklərin güclənməsinə xidmət edir. Günəş şüaları dərideki qan damarlarını genişləndirərək hərarəti artırır, nəticədə tərləmə baş verir. Tərləmə bədənin toksinlərdən təmizlənməsində çox önəmlidir. Beynin hormonal funksiyasının normal fəaliyyətini təmin edir. Gündə 10-15 dəqiqə günəş şüalarından yararlanmaq olar. Ən önəmli amillərdən biri odur ki, günəş döş və yoğun bağırsaq xərçənginə yaxalanma riskini azaldır. Günorta saatlarında günəş altında qısa bir müddət yeriməklə bu xəstəliyə yaxalanma riskini azaltmaq olar. Yayda isə əksinə, gündə yarım saat günəş qəbul etmək iştahanı nəzarətdə saxlamağa imkan verir.

Amma günəşin faydaları ilə yanaşı, zərərlərini də unutmaq olmaz. Günəşin yaydığı ultrabənövşəyi şüaların yaratdığı dəri xərçənginin melonoma növü daha təhlükəlidir, hətta öldürücüdür. Melonoma xərçəngində, xüsusilə bədəndə olan xalların böyüməsi, rəng dəyişməsi və qanama əlamətləri olarsa, mütləq həkimə müraciət etmək lazımdır. Bu cür xərçəng əsasən cərrahiyyə, immunoterapiya, kimya terapiyası ilə müalicə olunur. Dermatoloqun sözlərinə görə, günəş şüaları həm də dərinin qırışmasına, erkən yaşlanmasına, ləkələrə səbəb olur.

# Ördək balalarını öldürdü, 3 il həbs cəzası aldı

ABŞ-da otbiçənlə 9 ördək balasını qəsdən öldürməkdə ittiham olunan gəncə hökm oxunub. Bu barədə xəbəri "The Independent" nəşri yazıb. Hadisə Florida ştatının Vellinqton şəhəri Floridanin Palm-Biç rayonunda baş verib. 24 yaşlı bağban Ceyson Skott Felbo 2 may tarixində qazonu biçərkən bir neçə ördək balasını otbiçənlə əzib. Hadisə barədə polisə və heyvanlarla davranış nəzarəti (Animal control service) xidmətinə şikayəti isə yerlilərdən biri - Boyd Yentç ailəsi edib.

Yentçin sözlərinə görə, bağban ördəklərə hücum edən zaman o, qohumu ilə birgə ördək və onun 11 balasına yem verirmiş. Şahid bildirir ki, Felbonu etdiyi hərəkətdən çəkindirmək istədikdə isə o gülümsəyərək, elə bil acığa otbiçəni arxaya sürməyə başlayıb və daha çox ördək balasını tapdalayıb. Ördəklərin anası 4 balası ilə birgə hücumdan qaçaraq yaxınlıqdakı gölməçəyə sığınsalar da, balalardan daha ikisi aldığı yaralardan orada ölür.






## Kinodakı səhnəni təkrarlamaq istədi, öldü

İngiltərənin Devon şəhərində yaşayan, Ceyms Bondun və təyyarənin həvəskarı olan bir kişi kinoda gördüklərini təkrarlamaq qərarına gəlib. 67 yaşlı pilot Hovard Cox uşaqlığından bəri Bondun filmlərinin fanatı imiş. 1983-cü ildə çəkilən "Octopussy" filmində istifadə edilən Bondun uçduğu xüsusi təyyarəni çox arzulayan kişi öz imkanları ilə həmin təyyarənin oxşarını hazırlayıb. 30 il çalışaraq təyyarəni hazırlayan Cox İrlandiyada keçirilən Foynes Uçuş Şousunda iştirak edib. Lakin uçuş zamanı təyyarənin motorunda problem yaranıb və Dungarvan bölgəsində yerə düşüb. Həyatını itirən Hovard Coxun ölməndən öncə xərçəng xəstəsi olduğu və xəstəliyinin yaxşılığa doğru getdiyi bildirilmişdi.




**QOÇ** - Gərgin məqamlarla dolu olan bu günün ilk yarısını təmkinlə başa vurmağa çalışın. Bütün vacib işlərin həllini növbəti aya saxlayın. Konkret olaraq bu günsə, səhhətinizi qoruyun.

**BUĞA** - Nə qədər sadə görünsəniz, ulduzların yanında hörmətiniz də bir o qədər çox olar. Sizə ehtiyac duyanlara kömək göstərin. Saat 16-dan sonra riskli işlərə aludə olmayın.

**ƏKİZLƏR** - İyulun sonuna doğru bürcünüz üçün daha çox maddi cəhətdən uğurlu keçməlidir. Bu gün həm də gözləmədiyiniz istiqamətlərdən təkliflər alacaqsınız. Düşünmədən razılıq verməyin.

**XƏRÇƏNG** - Astroloji göstəricilərə inansaq, səhhətlə bağlı müəyyən problemləriniz gözlənilir. Odur ki, qidalanma zamanı ehtiyatlı olmalı, xəsarət törədə bilən işlərdən daşınmalısınız. Hündürlüyə çıxmayın.

**ŞİR** - Ailə-sevgi münasibətlərində vəziyyət qənaətbəxş olsa da, həmkarlarınızla aranızda soyuqluq yarana bilər. Bu amili nəzərə alıb verdiyiniz hər sözə əməl etməyə çalışın. Kimisə aldatmayın.

**QIZ** - Bütün vacib işlərinizi saat 16-ya qədər yekunlaşdırın. Əgər bu proses sonrakı müddətə qədər uzansa, münaqişəli situasiyalara cəlb oluna bilərsiniz. Qazanmaq ehtimalınız böyükdür.

**TƏRƏZİ** - Bu gün istənilən məsələdə risk etmək sizə zərər verə bilər. Odur ki, hansısa addımı atmazdan qabaq yüz ölçüb bir biçin. Müştərək fəaliyyətə başlamaq üçün bu təqvimdən yararlanın.

**ƏQRƏB** - İşlə bağlı yeniliklər yolunuzu gözləyir. Bu istiqamətdə sizə dəstək verənlər də tapılacaq. Günün ikinci yarısında birgə fəaliyyət planları haqqında götür-qoy etməyə dəyər.

**OXATAN** - Ən başlıcası özünüzü mübahisədən qorumaqdır. Bunu bacarsanız, narahatçılığınız olmayacaq. İşgüzar sövdələşmələrdə iştirak etmək, problemləri birgə həll etmək üçün uğurlu məqamdır.

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvimi sakit tərzdə başa vurmağa çalışın. Özünüzü gərginliyə sürükləməyin. Nəzərə alın ki, gün ərzində mənfi enerjili Ay bürcünüzdə olacaq. Qisas vaxtı deyil.

**SUTÖKƏN** - Əsas diqqəti fəaliyyətə yönəldin. Bəzi üzdəniraq dostlarınızla sonrakı münasibətləri konkretləşdirin. Xəyanəti bağışlamadığınız kimi, özünüz də etməyin. Uzaq yola çıxmaq məsləhət deyil.

**BALIQLAR** - Havalar nə qədər qaynar olsa da, fəaliyyətinizə ara verməyin. Çünki bütün astroloji qaynaqlar bu təqvimdə uğurlu karyeraya yetişmək şansınızdan xəbər verir. Təşəbbüskar olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ərini sevgilisi ilə gördü, dəliyə döndü...

Amerikanın Florida ştatında ərini sevgilisi ilə tətil edərkən yaxalayan qadın dəliyə dönüb. Qadın o qədər əsəbiləşib ki, əri belə onu sakitləşdirə bilməyib. Aldadılan qadın tətil yerində ərini sevgilisi ilə kafedə oturarkən görüb. Həmin anda ərinin sevgilisinə hücum edib. Əri həmin qadınla aralarında bir şey olmadığını desə də həyat yoldaşı ona inanmayıb. Əsəbi qadın ərinin sevgilisini küçənin ortasında yorulana qədər döyüb. Yalnız bu zaman sevgilisinin evli olduğunu öyrənən döyülən qadın hadisənin şokunu üzərindən ata bilməyib. Ətrafdakılar iki qadını ayıra bilmədiyi üçün hadisə yerinə polis çağırılıb. Polislərin müdaxiləsindən sonra qadınları ayıraraq polis şöbəsinə aparıblar.



**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300